www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 yanvar 2015-ci il Çərşənbə № 8 (6036) Qiyməti 40 qəpik

**Xəbər**

## Niyə məhz Parisin hədəf seçilməsinin sirri

yazısı səh.12-də

**Gündəm**

### Şəkidə ana üç uşağını götürüb Suriyaya gedib-şok təfərrüat




Rayonun Daşüz kənd sakini İbrahim Məmmədovun arvadı, qayınanası, baldızı və bacanağı azyaşlı uşaqlarını götürüb İŞİD-ə qoşulublar

yazısı səh.13-də

### Həbsdən çıxan NİDA-çılar "Yeni Müsavat"a danışdılar

yazısı səh.7-də

### Vaşinqton-Bakı münasibətlərinin korlanmasının üç mühüm səbəbi

yazısı səh.8-də

*İsa Qəmbər:*

### "Hakimiyyət Müsavat Partiyasını ələ keçirmək istəyirdi"

yazısı səh.5-də

### 14-cü "zona" gətirilən qara maskalılar barədə şok iddia

yazısı səh.3-də

### Büdcə kəsiri oliqarxların pulları hesabına doldurula bilər

yazısı səh.11-də

### Müxalifət benzinin üzərinə "od tökdü"

yazısı səh.11-də

### Yadigar Sadıqovun cəzası 6 ay da azaldıldı

yazısı səh.3-də

### SOS: neft quyusu üzərində park salınır

yazısı səh.11-də

### Dəm qazından 6 nəfər zəhərləndi - 2 ölü

yazısı səh.14-də

### İslam Kərimov "Putin İttifaqı"na "yox" dedi

yazısı səh.12-də

### Mingəçevirdə ana doğuşdan sonra öldü

yazısı səh.14-də

## Azərbaycanla ABŞ arasında gərginlik açıq müstəviyə keçdi

# VAŞİNQTONDA KRİTİK DİNLƏMƏLƏR: BAKI OBAMANI HƏDƏFƏ ALDI

NED tərəfindən təşkil olunan tədbirdə hakimiyyət sərt tənqid edildi; dövlət katibinin rəsmi nümayəndəsi Tomas Melia: "Biz AzadlıqRadiosunu və başqa təşkilatları var gücümüzlə müdafiə edəcəyik"; rəsmi dövlət qəzeti Obamanı ikiüzlü adlandırdı



yazısı səh.9-da

# Benzin qiymətlərə "od salacaq"

Ekspertlər deyir ki, yanacağın bahalaşması nəqliyyatda gediş haqqının və xidmət sahələrində qiymət artımlarına gətirib çıxara bilər; taksilər artıq qiyməti qaldırıb; un məhsullarının da bahalaşacağı gözlənilir

yazısı səh.6-da



### Prezidentin qardaşı Azərbaycanla biznesə görə həbs olundu

yazısı səh.4-də



### Abbas Abbasovun ağsaqqalı olduğu təşkilat dağılır

yazısı səh.4-də



### "Karikatura müharibəsi"- Qərbin yeni "Səlib yürüşü"?

yazısı səh.10-da



**Müsavat Partiyasının başqanı Arif Hacılı partiya üzvü Ziyarət Səfərovanı doğum günü münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**“Hörmətli Ziyarət xanım!**

**Sizi doğum günü münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.**

**Siz gənc yaşlarınızdan Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda milli-azadlıq hərəkatında iştirak etmisiniz. 1994-cü ildən Müsavat Partiyasının üzvü kimi azad, demokratik və hüquqi cəmiyyət quruculuğu uğrunda mübarizənizi davam etdirirsiniz.**

**Müsavat Partiyasının üzvü kimi göstərdiyiniz fəaliyyət həmişə örnək olub və üzərinizə düşən vəzifələrin öhdəsindən layiqincə gəlmisiniz.**

**Hörmətli Ziyarət xanım!**

**Bir daha Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığınız bu şərəfli mübarizə yolunda uğurlar arzulayıram".**



# Tofiq Yaqublu və İlqar Məmmədovun işi Ali Məhkəmədə

**Yanvarın 13-də Ali Məhkəmədə “İsmayıllı işi” üzrə həbs və məhkum olunmuş Tofiq Yaublunun (Müsavat Partiyası başqanının müavini) və İlqar Məmmədovun (ReAL təşkilatının sədri) şikayəti üzrə məhkəmə prosesi başlanıb.**

T.Yaqublunun vəkili Nemət Kərimli məsələ ilə bağlı musavat.com-a bildirib ki, məhkəmədə müdafiə tərəfi çıxış edib. Ancaq məruzəçi hakim bildirib ki, işin detalları ilə əsaslı şəkildə tanış olmayıb. “Bu səbəbdən məhkəmə təxirə salındı, həm də qeyri-müəyyən vaxtadək. Əgər hakim işlə tanış deyilsə, niyə məhkəmə təyin olunur? Necə ola bilər ki, məruzəçi hakim işlə tanış olmadan məhkəmə təyin olunsun? Bu, absurddur. İlqar Məmmədovla Tofiq Yaqublunun işini eyni icraatda birləşdirib, indi də qeyri-müəyyən vaxtadək təxirə saldılar”.

Qeyd edək ki, artıq iki məhkəmə instansiyası Tofiq Yaqublu və İlqar Məmmədov barədə çıxarılmış hökmün qüvvədə saxlanılması barədə qərar çıxarıb. Ali Məhkəmə bu işə baxacaq üçüncü və sonuncu məhkəmə instansiyasıdır.

Xatırladaq ki, T.Yaqublu və İ.Məmmədov 2012-ci ilin yanvar ayında İsmayıllı rayonunda baş vermiş kütləvi iğtişaşı təşkil etməkdə və qızışdırmaqda təqsirləndiriliblər. İş üzrə materiallarda isə onların İsmayıllıya iğtişaşlar səngiyəndən sonra gəldikləri müəyyən olub. Beynəlxalq hüquq müdafiə təşkilatları bu işdə sübutları yetərsiz sayırlar.

❑ RÖYA

# Demokratiya və İnsan Haqları Mərkəzi Müsavat başqanı ilə görüşdü



**Müsavat Partiyasının qərargahında Demokratiya və İnsan Haqları Mərkəzinə daxil olan partiyaların rəhbərləri ev sahibi təşkilatın başqanı ilə görüşüblər. Musavat.com-un əməkdaşının verdiyi məlumata görə, tədbirdə Müsavat Partiyasının başqanı Arif Hacılı, Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı, AXP lideri Pənah Hüseyn, KXCP sədri Mirmahmud Mirəlioğlu və Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev iştirak edirlər.**

Tədbirin ölkədə və dünyada baş verən son hadisələr, eləcə də qarşıdan gələn parlament seçkiləri ilə əlaqədar olduğu bildirilir.

Toplantı başa çatdıqdan sonra iştirakçılar görüşün detalları barədə mətbuata açıqlama veriblər.

**Müsavat başqanı Arif Hacılı musavat.com-a tədbir barədə bunları deyib:** “8 siyasi partiya seçki öncəsi əməkdaşlıq barədə niyyət protokolu imzalayıb. Hazırda bu qurumlar digər siyasi partiyalarla da müzakirələr aparır. Bu çərçivədə onlar bu gün Müsavat Partiyasının qərargahına gələrək bizimlə görüşdülər. Seçki öncəsi funksional əməkdaşlıq barədə öz düşüncələrini diqqətimizə çatdırdılar. Qəbul etdikləri bəyannaməni bizə təqdim etdilər. Müsavat Partiyasında bu məsələlər müzakirə olunacaq və müvafiq cavab veriləcək”.

DİHM rəhbəri Mirmahmud Mirəlioğlu toplantı barədə yaxın günlərdə mətbuata geniş açıqlama veriləcəyini bildirib.

AXP lideri Pənah Hüseyn bu cür tədbirlərin davamlı olacağını söylədi: “2015-ci il seçkiləri ilə bağlı bir qrup siyasi partiya digər qurumlarla məsləhətləşmələr aparır. Bu gün Müsavat başqanı Arif Hacılı ilə görüşdük. Fikir mübadiləsi aparıldı. Məsləhətləşmələrin davam etdirilməsi qərara alındı. Yanvarın 14-də isə Ümid, ADP, Ədalət, İslam, Yaşıllar partiyaları ilə görüş olacaq”.

AXP lideri seçkiqabağı hər hansı blokun yaranması ilə bağlı indidən danışmağın tez olduğunu da qeyd etdi.

❑ Cavanşir ABBASLI

## Milli Strateji Düşüncə Mərkəzi dəyirmi masa keçirir

**Milli Strateji Düşüncə Mərkəzi “2015-ci il parlament seçkiləri: Gerçəkliklər və demokratik qüvvələrin hədəfləri” mövzusunda dəyirmi masa keçirəcək.**

Ölkəmizin aparıcı icitimai-siyasi təşkilatlarının təmsilçilərinin, ekspertlərin iştirakı nəzərdə tutulan dəyirmi masada 2015-ci il parlament seçkiləri ilə bağlı bütün əsas məsələlər-seçkilərə qatılmaq və ya imtina, seçki islahatları, proporsional seçkilərin bərpası, etimadlı seçki komissiyalarının təşkili, əhatəli müşahidənin qurulması və s. müzakirə ediləcək.

Tədbir Müsavat Partiyasının mərkəzi qərargahında olacaq və 15 yanvar saat 16.00-da başlayacaq.

Tədbir media nümayəndələri və mövzu ilə maraqlananlara açıqdır.

# Rusiya qatil əsgərini ermənilərə verməkdən imtina etdi



**Ermənistanın Gümrü şəhərində bir ailəni qətlə yetirməkdə şübhəli bilinən və Ermənistan-Türkiyə sərhədində, Bayandur kəndi yaxınlığında Rusiya sərhədçiləri tərəfindən tutulan hərbçi Valeri Permyakov Rusiyanın 102 saylı hərbi bazasının rəhbərliyinə təhvil verilib. Ermənistan və Rusiya baş prokurorluqlarının nümayəndələri Gümrüdəki qətl hadisəsi ətrafında ciddi araşdırma və gərgin fikir mübadiləsi aparıblar.**

Nəticədə Rusiya tərəfi erməni ailəsini güllədən keçirən əsgərini Ermənistan tərəfinə verməkdən imtina edib.

Virtualaz.org bildirir ki, bu barədə “Novosti Armenii” agentliyinə Ermənistan Baş Prokurorluğunun mətbuat xidmətindən bildiriblər.

Əsas kimi də qatil Valeri Permyakovun Rusiya vətəndaşı olması göstərilib. Rusiya qanunvericiliyi isə ölkə vətəndaşının, hansı cinayəti törətməsindən asılı olmayaraq, başqa ölkəyə verilməsini qadağan edir.

Bununla belə, xüsusi vurğulanıb ki, qatil, eləcə də bu işdə günahı olan digər şəxslər qanunun tələb etdiyi ən ciddi şəkildə cəzalandırılacaq və bu barədə Ermənistan tərəfinə ətraflı məlumat veriləcək.

# Prezident Sumqayıtda iki zavodun açılışını etdi

**Prezident İlham Əliyev yanvarın 13-də Sumqayıt şəhərinə gəlib. Dövlət başçısı Nəsimi adına şəhər mədəniyyət və istirahət parkında aparılan yenidənqurma işləri ilə tanış olub. Bundan sonra dövlət başçısı Sumqayıt tekstil fabrikinin açılışını edib.**

Prezident Sumqayıta səfəri çərçivəsində Gənclər Evinin açılışında da iştirak etdi.

Daha sonra prezident beton məmulatı zavodunun da açılışına qatılıb.

# “Azəristiliktəchizat”ın idarə rəisi ittihamlara cavab verdi

## Kamran Nəsirov: “Yaşayış evləri tikilib, bütün xətlər binaların altında qalıb. Bu mənim günahımdır?”

**“Yeni Müsavat”ın 13 yanvar tarixli sayında “Azəristiliktəchizat”da nələr baş verir" başlıqlı yazı dərc olunub. Məqalədə Bakının Yasamal rayonunda minlərlə mənzilin istiliksiz qalmasının pərdəarxası məqamlarına aydınlıq gətirilmişdi.**

Yazıda 8 saylı İstilik Sistemlərinin İstismar Sahəsinin qazanxanasında cinayətə bərabər olan təxribatın təfərrüatları göstərilmişdi. Qazanxanaya məsul olan Arif adlı şəxsin işdən çıxarıldığına görə belə təxribata əl atdığı bildirilirdi.

**Bununla bağlı redaksiyamıza müraciət edən 8 saylı İstilik Sistemlərinin İstismar Sahəsinin rəisi Kamran Nəsirov yayılan xəbərlərin reallıqdan uzaq olduğunu bildirib:** “Mətbuat işçilərinə böyük hörmətim var. 1984-cü ildən rəis işləyirəm. Amma gözləməzdim mətbuat araşdırma aparmadan belə yazı verər. İmkan varsa, gəlib yerində araşdırın. Şəxsiyyətimə qarşı bu cür yazıları gözləməzdim. Ailələri istiliklə təmin etmək mənim vəzifə borcumdur. Bu tamam başqa məsələdir. Bütün bu baş verənlərin sahə rəisinə nə dəxli var? Bunlar mənə qarşı bir təxribatdır. Bu, işləyən bir insanın qol-qanadını sındırmaqdır. Yaşayış evləri tikilib. Bütün xətlər binaların altında qalıb. Bu mənim günahımdır? Tezliklə yaranan problemlərin aradan qaldırılması üçün əlimizdən gələni edirik. Arifin nə səbəblə işdən kənarlaşdırılması məlum deyil. Günahının olub-olmamasını deyə bilmərəm. O, vəzifə borcunu yerinə yetirir ki, insanları istiliklə təmin etsin. İşdən çıxarıldığı deyilən kimi, azad olunmur ki. Arif bu gün də bizə kömək edir. Arifin günahı o olub ki, texniki şərtlərə əməl etməyib. Başqa bir səhvi olmayıb. Heç kəsi aldatmayıb. Yazırlar ki, Arif cinayətə bərabər təxribat edib. O, belə şey etməz. Bu, insan həyatını məhv etməkdir. Xahiş edirəm ki, bu barədə araşdırma aparılsın”.

❑ Cavanşir ABBASLI


# Tələsin! AAAF Park-da möhtəşəm kampaniya bitmək üzrədir!




| 14 mərtəbəli (yeni) | | | |
|---|---|---|---|
| Mənzilin sahəsi | İlkin ödəniş | Kredit müddəti | 1 m² qiyməti |
| 60 m²-ə qədər | 33% | 10 illik | 950AZN |
| 90 m²-ə qədər | 28% | 10 illik | 950AZN |
| 90 m²-dən yuxarı | 23% | 10 illik | 950AZN |
| Mənzillər mətbəx mebeli daxil, təmirli olaraq təhvil verilir (36 ay + 6 ay) | | | |

| Tikilməkdə olan mənzillər | | | |
|---|---|---|---|
| Mənzilin sahəsi | İlkin ödəniş | Kredit müddəti | 1 m² qiyməti |
| 60 m²-ə qədər | 33% | 10 illik | 750AZN |
| 90 m²-ə qədər | 28% | 10 illik | 750AZN |
| 90 m²-dən yuxarı | 19% | 10 illik | 750AZN |
| 135 m² | 9% | 10 illik | 750AZN |
| Mənzillər təmirsiz olaraq təhvil verilir | | | |

| Hazır işləyən qeyri-yaşayış sahələri | | | |
|---|---|---|---|
| Q/y sahəsi | İlkin ödəniş | Kredit müddəti | 1 m² qiyməti |
| 100 m²-ə qədər | 50% | 10 illik | 3000 AZN |
| 250 m²-ə qədər | 45% | 10 illik | 2750 AZN |
| 500 m²-ə qədər | 40% | 10 illik | 2500 AZN |
| 1000 m²-ə qədər | 35% | 10 illik | 2250 AZN |
| 1000 m² + | 30% | 10 illik | 2000 AZN |

| Tikilməkdə olan qeyri-yaşayış sahələri | | | |
|---|---|---|---|
| Q/y sahəsi | İlkin ödəniş | Kredit müddəti | 1 m² qiyməti |
| 100 m²-ə qədər | 50% | 10 illik | 1500 AZN |
| 250 m²-ə qədər | 45% | 10 illik | 1250 AZN |
| 500 m²-ə qədər | 40% | 10 illik | 1000 AZN |
| 1000 m²-ə qədər | 35% | 10 illik | 900 AZN |
| 1000 m² + | 30% | 10 illik | 800 AZN |

**AAAF Park Yaşayış Kompleksinin ənənəvi “Yeni il Bayramı” kampaniyası davam edir! Bayram günlərində ev sahibi olmaq istəyənlər üçün möhtəşəm şans yaranıb. Belə ki, Azərbaycanın ən gözəl yaşayış məkanlarından biri olan AAAF Park Yaşayış Kompleksində 10 ilədək şirkətdaxili faizsiz kreditlə təmirli və təmirsiz mənzillər və ya ticarət obyektləri alıcılara təklif edilir.**

**Nümunə üçün 1 otaqlı sahəsi 56.5 kv.m olan mənzil üçün ilkin ödəniş 13983 manat, aylıq ödəniş 236 manat təşkil edir. İlkin ödənişin məbləği mənzilin kv.m-dən asılı olaraq 10-30 faiz arasında dəyişir. Qeyd etmək lazımdır ki, mənzillərin sayı məhduddur və təkliflər hər saat dəyişə bilər. “Yeni il” kampaniyası yalnız yanvar ayının 15-nə qədər davam edəcək.**

**Yüksək keyfiyyətdən yararlanmağa tələsin!**

## Tələsin! Bu real şansı əldən verməyin!

**Ətraflı məlumat üçün AAAF Park Yaşayış Kompleksinin satış mərkəzimizə yaxınlaşa bilərsiniz.**

**Ünvan: Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 167.**

**Tel.: *6464 və ya (012 / 055 / 050 ) 408 64 64 / 050 256 6200 / 050 256 6201 / 050 256 6202 / 050 256 6203**

**14 saylı cəzaçəkmə müəssisəsi işçilərinin həbs edilməsi haqda məlumat yayılıb. Axar.az-a daxil olan qeyri-səhih məlumata görə, Elşad Babayevin ölümündə təqsirli bilinən mayor rütbəli Firdovsi, rejim rəisi, baş leytenant Faiq adlı şəxs və bir neçə digər həbsxana işçisi məsuliyyətə cəlb olunub.**

# 14-cü "zona" gətirilən qara maskalılar barədə şok iddia

## Mənbə: "Müəssisəyə gətirilən Daxili Qoşunların əsgərləri deyil..."

"Yeni Müsavat"ın əməkdaşı məlumatı dəqiqləşdirmək üçün Penitensiar Xidmətin mətbuat xidmətinə sorğu ilə müraciət edib. Mətbuat xidmətindən bildiriblər ki, məhkum Babayev Elşad Səid oğlunun ölümü ilə bağlı Qaradağ Rayon Prokurorluğunun müstəntiqi tərəfindən məhkəmə-tibb ekspertinin və Ədliyyə Nazirliyinin Tibb Xidmətinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib. Penitensiar Xidmət tərəfindən hadisə üzrə xidməti yoxlama və müvafiq təhlükəsizlik tədbirləri həyata keçirilib, toplanmış sənədlər aidiyyəti üzrə prokurorluğa göndərilib. Qaradağ Rayon Prokurorluğunda faktla bağlı cinayət işi başlanıb, hazırda istintaq hərəkətləri davam etdirilir.

Ötən il dekabrın 26-də 14 saylı həbsxanadan Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsinə köçürülərək karsa salınan məhkumların yaxınları Ombudsman Aparatında, Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BXQK) Bakı nümayəndəliyində və Pentensiar Xidmət üzrə İctimai Komitədə olublar.

**Məhkumların yaxınlarından biri deyib ki, Vüqar adlı şöbə müdiri ilə görüşüblər. Məhkum yaxını şöbə müdirindən aldığı cavabdan təəccübləndiklərini söylədi:** "Şöbə müdiri bizi dinləyib dedi ki, 10 günə onlara baş çəkərik. Biz ona bir daha izah etdik ki, yaxınlarımıza işgəncə verilib, bədənləri üzərində izlər var. Əgər 10 günə onlara baş çəkəcəksə, həmin izlərdən əsər-əlamət qalmayacaq. Dedi ki, 3-5 günə ora gedəcək və nəticə haqda məlumat verəcəklər".



BQXK-da isə məhkumların yaxınlarına bildiriblər ki, yaxın 2 gün ərzində müalicə müəssisəsinə gedəcəklər.

**Penitensiar Xidmət üzrə İctimai Komitədən isə bildirilib ki, məsələ araşdırılacaq:** "Dedilər ki, rəhbərliklə danışıb müalicə müəssisəsinə gedəcəklər. Orada karsda saxlanan məhkum qohumlarımıza baş çəkəcək, saxlama şəraitləri, köçürülmələrinin səbəbi ilə maraqlanacaqlar. Orada bizə məsələnin araşdırılacağını dedilər".

Redaksiyamıza dekabrın 26-da 14 saylı cəzaçəkmə müəssisəsində baş verən gecə hücumunun sensasion təfərrüatları daxil olub. Özünü hazırda 14 saylı müəssisədə saxlanan məhkumun yaxını kimi təqdim edən mənbə deyib ki, müəssisəyə gətirilən Daxili Qoşunların əsgərləri olmayıb. "Həmin adamlar üzlərinə qara maska taxan Penitensiar Xidmətin digər cəzaçəkmə müəssisələrində çalışan işçilər olub. Həmin adamlar məhkumlarla amansızcasına davranıblar ki, digər müəssisələrdə Elşad Babayevin döyülərək öldürülməsinə etirazlar olmasın. Onların qəddarlığının səbəbi də budur. Əliyalın məhkumların üzərinə itlərin qısqırdılması, dəyənəklə başına-gözünə zərbələr endirilməsi vəhşilikdir. Dövlət belə vəhşiliklərin qarşısını almalıdır".

**Mənbə bildirib ki, "Tubzon"a köçürülən məhkumlar əslində etirazların dinc şəkildə keçirilməsinə çalışanlardır:** "Müəssisə əməkdaşlarını döyən, növbətçi hissədə telefonu sındıran başqa məhkumlardır. Əgər düzgün istintaq aparmaq istəyirlərsə, müəssisənin dörd bir tərəfində kamera var. Yadaşlarını çıxarıb baxsınlar. "Tubzon"a köçürülən məhkumların günahı həmin adamları sakitləşdirməklərindədir. Elşad Babayevi öldürənlər dekabrın 22-də növbədə olan nəzarətçilərdir. Bəzi məhkumları bu gün də döyüb öldürürlər ki, onlar Elşad Babayevin ölümünü öz üzərlərinə götürsünlər. İşi belə bağlamaq istəyirlər ki, guya Elşad Babayevi məhkumlardan biri döyüb və o da karsda ölüb. Qaradağ Rayon Prokurorluğunun müstəntiqi Eyyub Bəşirov karsda saxlanan məhkumlardan Elşad Babayevin məhkumlardan biri tərəfindən öldürülməsini dolayısı ilə olsa belə təsdiqləyən ifadə almağa çalışır".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Yadigar Sadıqovun cəzası 6 ay da azaldıldı

**Ali Məhkəmə Müsavat başqanının həbsdə olan müavini Yadigar Sadıqovun şikayət ərizəsinə baxıb. Yadigar Sadıqovun cəza müddətinin üzərindən daha 6 ay götürülüb.**



Yadigar Sadıqov

Xatırladaq ki, Lənkəran Şəhər Məhkəməsi Y.Sadıqova 6 il həbs cəzası vermiş, Şirvan Şəhər Apelyasiya Məhkəməsi isə bu müddəti 2 il azaltmışdı.

Yadigar Sadıqovun Hüquqlarını Müdafiəsi Komitəsinin sədri Elman Fəttah qərarla bağlı arqument.az-a danışıb. O bildirib ki, Ali Məhkəmənin bugünkü qərarı Yadigar Sadıqovun işi ilə bağlı daha bir qanunsuzluğun olduğunu təsdiqləyib: "Ali Məhkəmənin qərarı daha bir biabırçılığı ortaya qoydu. Bilirsiniz ki, istintaq zamanı Yadigar Sadıqova Cinayət Məcəlləsinin 221.3 (silah və ya silah kimi istifadə edilən predmetdən istifadə ilə xuliqanlıq) maddəsi ilə cinayət işi açılmışdı. 4 ay istintaq getdi. Bundan altı ay sonra Yadigar bəyə əlavə ittiham olaraq 127-ci (az ağır xəsarət yetirmə) maddəni verdilər. Bu maddədə isə istintaq dövründə həbs-qətimkan tədbirinin seçilməsi nəzərdə tutulmayıb. Faktiki Ali Məhkəmə Yadigar bəyin üzərindən 221.3-cü madəni götürdü, iş qaldı 221.1 və 127-ci maddələrnin üzərində. Bu da onu göstərir ki, Yadigar Sadıqova istintaq zamanı həbs-qətimkan tədbirinin seçilməsi tamamilə qanunsuz olub. Onun bir narkoman tərəfindən şərlənərək həbs olunması və məhkəmənin siyasi sifarişlə qərar çıxardığı bir daha təsdiqləndi".

Müsavat Partiyası bəyanat yayaraq əsassız yerə həbs edilən Y.Sadıqova Ali Məhkəmənin bəraət vermək əvəzinə, onu həbsdə saxlamaq haqqında qərar çıxarmasının rejimin repressiya siyasətinin davamı olduğunu bəyan edir və Y.Sadıqov da daxil olmaqla, bütün siyasi məhbusların dərhal həbsdən azad edilməsini hakimiyyətdən tələb edir.

# "Guya mən bank yarmışam..."

## Sevinc Osmanqızının məhkəməyə gətirilməsi tələb edilib

**Yanvarın 13-də Nərimanov Rayon Məhkəməsində jurnalist Sevinc Osmanqızına qarşı xüsusi ittiham qaydasında qaldırılan cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



Sevinc Osmanqızı

APA-nın xəbərinə görə, prosesdə hakim Məzahir Sadıqov Sevinc Osmanqızının məhkəməyə gəlməsini tələb edib.

Sevinc Osmanqızının nümayəndəsi Elmira Sarıyeva isə bildirib ki, müdafiə etdiyi şəxs işi ilə bağlı Bakıya gələ bilmir. Hakim isə prosesin yanvarın 22-dək təxirə salındığını, S. Osmanqızının həmin tarixdə prosesə qatılmalı olduğunu açıqlayıb.

S.Osmanqızı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, prosesə qatılmayacaq. O, baş verənləri sifariş adlandırdı: "Məqsəd məni həbs etdirməkdir".

**Müsahibimizin fikrincə, bu cinayət işinin icraata götürülmə qaydası da, baş verdiyi vaxt da maraqlıdır:** "Belə bir təəssürat yaranır ki, tələm-tələsik cinayət işi açmaq sifarişi verilib. Təhqiqat başlamamış, artıq dövlət sərhəd xidmətinə, digər dövlət qurumlarına təlimatlar göndərilir, mənim məcburi gətirilməyim tələb olunur. Guya mən bank yarmışam, ya adam öldürmüşəm. Demokratik cəmiyyətdə fikir müxtəlifliyinə, peşəkar jurnalistika prinsiplərinə dözümlülük olmalıdır. Azad mətbuat nümayəndələrini susdurmaq üçün inzibati resurslardan istifadə etmək yolverilməzdir".

Qeyd edək ki, Sevinc Osmanqızının keçmiş həyat yoldaşı Azər Xəlilovun iddiası əsasında ona qarşı Cinayət Məcəlləsinin 147 (böhtan atma) və 148-ci (təhqir etmə) maddələri ilə cinayət işi açılıb.

❑ **Sevinc TELMANQIZI**

# Türkiyə mətbuatı: "İŞİD Azərbaycana çatdı"

## Deputatdan sensasion İŞİD açıqlaması

**Türkiyənin "Yeni Çağ" qəzeti "İraq Şam İslam Dövləti" (İŞİD) terror qruplaşmasının Azərbaycanda fəaliyyətini gücləndirdiyinə dair məqalə dərc edib. Virtualaz.org saytı xəbər verir ki, məqalədə İŞİD-çilərin 90 faizinin Suriyaya Türkiyə üzərindən keçdiyi göstərilir. Qəzet yazır ki, müxtəlif ölkələrdən öz sıralarına radikalları cəlb edən qanlı təşkilat İŞİD-in qolu Azərbaycana da uzanıb.**

Təşkilat Azərbaycandan topladığı gənclərə təlim keçdikdən sonra onları ailələri ilə birlikdə Türkiyə üzərindən Suriyaya keçirir. Dönmək istəyən ailələr isə "Azərbaycanda sizi həbs gözləyir" deyə qorxudulur. Məqalədə deyildiyinə görə, İŞİD nə qədər itki versə də öz sıralarına yeni döyüşçüləri cəlb etməkdə çətinlik çəkmir. Terror təşkilatı Türkiyə, Yaxın Şərq, Avropa və Rusiyadan sonra döyüşçülər toplamaq üçün yeni "hovuzu" Azərbaycan olub. Bildirilir ki, Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi İŞİD-ə qatılanlara qarşı tez-tez əməliyyatlar keçirir. "İŞİD son zamanlar Azərbaycanda fəaliyyətini gücləndirib. Qanlı təşkilat tələyə saldığı gənclərdən evli olanları arvadları ilə birlikdə təlim keçib Suriya və İraqdakı müharibəyə cəlb edir. İŞİD geri dönmək istəyənləri "qayıtsanız, cinayət törətdiyiniz üçün 15 il həbs cəzası alacaqsınız" deyə qorxudur. Qayıtmalarına icazə verilənlər isə Azərbaycana yox, Ukraynaya göndərilir" deyə, qəzet yazır.

Yada salaq ki, İŞİD daxili işlər naziri Abdul Vahid Xudayar Əhməd Azərbaycandan olan yaraqlıları bir yerə toplayaraq onları tərifləyib və Qərbin dəstəklədiyi Azərbaycan hakimiyyətinə qarşı silaha sarılmağa çağırıb.

İŞİD rəhbərliyində təmsil olunan şəxsin dedikləri nə dərəcədə realdır? İŞİD ölkəmizdə hər hansı bir təxribata, qanlı olaya imza ata bilərmi?

**Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc deyir ki, İŞİD yeni fenomendir:** ""Əl-Qaidə", Taliban və başqa milli, etnik, dini zəmində formalaşmış terror qrupu kimi yanaşmaq olmaz. İŞİD sənəd üzərində bir dövlət modelidir. Ona görə də öz-özlüyündə əl-Bağdadi çevrəsinə bu cür vəzifələri paylamaqla məşğuldur. Onun iearxik sistemi hansısa kriminal, cinayətkar təşkilat modeli deyil. Bu baxımdan İŞİD rəhbərlərinin dilindən Azərbaycana yönəlik dəfələrlə bəyanatlar səslənirsə, bu, tərəfdarlarına yol xəritəsidir".

**Deputat bildirib ki, hədə bəyanatların arxasında nələrin dayandığı araşdırılmalı, müvafiq tədbirlər görülməlidir:** "Təhlükəsizlik strukturları bu bəyanatların arxasında real hansı planların dayandığını müəyyən etməyə çalışmalıdırlar. Ehtimal edirəm ki, bu bəyanatları müvafiq qurumlar əməliyyat məlumatları şəraitində qəbul edirlər. İŞİD Azərbaycanın neft hövzələrinə, neft mədənlərinə, neft kəmərlərinə qarşı təxribat törədə bilər. Baxmayaraq ki, o ərazilərin qorunması konsorsiuma daxil olan ölkələr və Xüsusi Dövlət Mühafizə Xidmətinin nəzarəti altındadır, terror öz arealını genişləndirib, texnikasını müasirləşdirib".

**Z.Oruc bildirdi ki, Fransada baş verən məlum olaylardan sonra sinaqoqların, məktəblərin, məscidlərin, yəhudilərin kompakt yaşadığı ərazilərdə əlahiddə təhlükəsizlik tədbirləri görülməsinə başlanıb:** "Azərbaycandan çıxan insanlar İŞİD-in tərkibində döyüşürlər. Bunların hər birini biz potensial təhlükə kimi qəbul edirik".

**Deputat Bakı 2015 Avropa Oyunlarına bir neçə ay qalmış İŞİD-dən təhdidedici açılamanın verilməsinə diqqət ayırmağa əsas olduğunu dedi:** "Azərbaycanda keçiriləcək yay oyunlarından əvvəl belə oyunları keçirmiş dövlətlərin təhlükəsizlik qurumları ilə daha koordinasiyalı işlər görülməlidir".

**Z.Oruc İŞİD-in Azərbaycanda tərəfdarlarının varlığını da gizlətməyib:** "İŞİD ilk başladığı dövrə qədər cazibəsini saxlamayıb. Azərbaycanda dövlət, parlament, mətbuat və Dini İşlər üzrə Komitə tərəfindən üzərinə gedilməsi də öz rolunu oynayıb. Dini işlər üzrə qurumun rəhbərliyində dəyişiklik, siyasi cinahda formalaşmış insanın ora təyinatı Azərbaycanda dindən bir dayaq kimi istifadə etmək, fanatiklərin, cihadçıların, cənnətə gedən yolun Suriyadan keçdiyini qəbul etdirmək istəyənlərin meydanını daraltdı. Amma demək olmaz ki, bu, tamamilə sıfıra bərabərləşib. Demək olmaz ki, İŞİD-in ölkəmizdə ideya silahdaşları yoxdur. Təbii ki, var. Amma həmin təhkükəni daha çox Suriyada döyüşənlərin çevrəsindən gözləyirəm. Azərbaycanda məscid-də vəhhabi adına namaz qılanın potensial terrorçuya çevrilmə ehtimalının üzərində dayanmağa lüzum görmürəm".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 8 (6036) 14 yanvar 2015



# Bir fağır ABŞ tapıblar...

Xalid KAZIMLI

**Dünyada baş qaldırmış ant-Amerika isterikasına bizim ölkəmizin, daha dəqiqi, onu idarə edənlərin də qoşulmasının öz mühüm səbəbləri var. Bu mövqe, eləcə də rəsmi dövlət qəzeti "Azərbaycan"da çıxan "Obamanın ikiüzlülüyü" məqaləsi boşuna deyil.**

Görünür, rəsmi Bakı Vaşinqtondan özünə qarşı yönələn təzyiqlərə bu cür təpki verir, müdafiə olunmağa çalışır.

Bu, həm də bir seçim məsələsidir. Hazırda ötən əsrin 80-ci illərində olduğu qədər barışmaz şəkildə qarşı-qarşıya durub düşmənçilik edən ABŞ və Rusiya arasında qalan Azərbaycan ikinciyə sığınmağı üstün tutur.

Bunu demokratiya və avtoritarizm arasında seçim kimi səciyyələndirmək də olar.

Azərbaycan ona görə Rusiyaya yaxınlaşır ki, Rusiya yaxındadır, "rus ayısı"nın iti caynaqlı pəncəsinin bir qolaylanmaqlıq məsafəsindədir. Üstəlik, bu "ayı" hır-zır qanmır, uzun-uzadı düşünmür, qəzəblənəndə dərhal hərəkətə keçir.

ABŞ isə uzaqdadır, həm də hələm-hələm emosional hərəkət edən deyil, bəzi sayğısızlıqları uda, unuda, görməzliyə vura, güzəştə gedə bilir, arzusuna yetə bilməsə də, problemi dialoqla həll etməyə çalışır. Rəsmi Bakı Ağ Evin də, Dövlət Departamentinin qətiyyətlilik dərəcəsini, hara qədər gedə biləcəyini, nə vaxt hansı tədbirə əl atacağını yaxşı bilir, dəfələrlə yoxlayıb və əmindir ki, indilikdə ABŞ-dan ziyan gəlməz.

2013-cü ildə Rusiyanın ölkədə siyasi dəyişikliyə nail olmaq planı ortadaydı. Hazırda "Vaşinqton Azərbaycanda çevriliş etmək istəyir" iddiasını əks etdirən cümlənin iki il öncəki variantında isim yerində Rusiyanın adı vardı, fel isə dəyişmirdi. İqtidar düşərgəsi həyəcanlı idi, rəsmi və qeyri-rəsmi sözçülər Kremlin məkrli olanlarına alət olanlardan gen-bol danışır, yazırdılar. Ancaq o zaman heç kəs "Putinin ikiüzlülüyü" başlığı ilə yazı yazmağa cəsarət etmədi. Heç verilən müsahibələrdə də belə bir cümlə, ifadə işlədən olmadı.

Belə çıxır ki, bizimkilər Putinlə müqayisədə Obamanı fağır tanıyıblar və hesab edirlər ki, bununla ağac-ağaca durmaq olar.

Əslində Barak Obama prezident kürsüsündə oturduğu ilk gündən ta indiyə qədər atdığı addımlarla, verdiyi bəyanatlarla, müxtəlif qərarları ilə, rəsmi səfərlərdəki davranışlarıyla sələflərindən fərqli bir lider olduğunu göstərib və göstərməkdədir. Obama daha mülayimdir, aqressiv və kinli deyil. Belə adama dişsiz də deyirlər. Onun yerində rəqibi senator Makkeyn olsaydı, nə ABŞ-ın beynəlxalq nüfuzu indiki kimi olardı, nə də ABŞ prezidenti dünyada indiki reputasiya ilə tanınardı.

Bəzən deyirlər ki, ABŞ-ı "dərin dövlət", müxtəlif institutlar idarə edir, prezident simvolik hakimiyyətə malikdir. Ola bilər ki, bu sözdə müəyyən həqiqət var, ancaq hər halda prezident olan şəxs "dərin dövlət"in də, idarəedici institutların da rəhbəridir və dövlətin simasıdır, ondan çox şey asılıdır.

Dünyanı sarmış anti-Amerikanizm dalğasının böyüyüb bu hala gəlməsində Obamanın, onun administrasiyasının da səhvləri olmamış deyil. Ancaq bir səbəb də dünyanın üçdə ikisində hökmran olan despotizmin ABŞ-a, onun dəstəklədiyi, yaymağa çalışdığı demokratik dəyərlərə müqavimətdir.

ABŞ-i ən çox pisləyənləri sırasına baxaq: Rusiya - avtoritar rejimə malik aqressiv dövlətdir; Şimali Koreya - totalitarizm və avtoritarizmin bütün hədləri aşdığı bir rejimə malikdir; İran - teokratik rejimli, nüvə silahı əldə etmək istəyərək regionda lider olmaq istəyən bir dövlətdir; Kuba - 55 ilin diktatura yuvasıdır; Venesuela - psevdosolçuluq ideologiyasının hökmran olduğu avtoritar dövlətdir; Belorus - Rusiyaya güvənən, 20 ildən bəri dəyişməz liderin idarə etdiyi tiranlıqdır; bir sıra ekstremist dini təşkilatlar - quldarlıq quruluşu dövrünə xas, şəriət qanunlarıyla idarə olan dövlət modeli qurmaq istəyən qruplardır.

Amerikanı ən çox pisləyən onlardır. Və onların öz mahiyyətləri, məram və məqsədləri ortadadır.

Söz yox, ABŞ-ı çox tənqid etmək, siyasətini bəyənməmək, pisləmək olar, amma yuxarıda adı çəkilənlərlə qoşulmaq, onların ritorikası ilə çıxış etmək lazım deyil.

ABŞ xarici siyasətində nə qədər səhvlərə yol versə də, dünya üzərindəki 200 dövlətin 180-indən yaxşıdır.

Dünyadakı bütün problemlərin qaynağı olaraq bu dövlətin adını çəkmək yanlışdır. O problemlər ABŞ-dan 1300, 2000 il öncə də vardı.

# Abbas Abbasovun ağsaqqalı olduğu təşkilat dağılır

## Sabiq vitse-primyer bəyanat verdi; "AzərRos" qurultayını təxirə saldı

**"AzərRos" Federal Milli Mədəni Muxtariyyətindəki daxili qalmaqal böyüyür. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, qurum üzvləri ilə Ağsaqqallar Şurası arasında anlaşılmazlıq yaranıb. Belə ki, qurumun prezidenti Asif Məhərrəmov dekabrın 26-da istefa verəndən sonra bu il yanvarın 17-də növbədənkənar qurultay keçirilməsi barədə qərar qəbul olunub.**

Lakin "AzərRos" Ağsaqqallar Şurasının sədri Abbas Abbasov həmin tarixdə növbədənkənar qurultayın keçirilməsinə qarşı çıxıb və bununla bağlı bəyanat yayıb.

**A. Abbasov yanvarın 13-də yaydığı müraciətində qeyd edib ki, "AzərRos"la bağlı Federal Şuranın iclası çağırılmalı, növbədənkənar qurultaya hazırlıq planı təsdiq edilməlidir:** "Buna görə də 2015-ci il 17 yanvar tarixinə təyin olunan növbədənkənar qurultaya hazırlıq işləri dayandırılmalıdır. Çünki qurultaya hazırlıq "AzərRos" FMMM-in Nizamnaməsinə uyğun olaraq Muxtariyyətin Federal Şurasının rəhbərliyi altında keçirilməlidir".

A. Abbasov bəyanatında qeyd edib ki, yalnız Ağsaqqallar Şurası namizədləri təsdiq edəndən sonra "AzərRos" prezidentini seçmək, eləcə də digər məsələləri həll etmək üçün qurultay keçirmək olar.



Abbas Abbasov

A.Abbasovun bu müraciətindən bir qədər sonra isə "AzərRos"dan APA-ya bildirilib ki, yanvarın 17-nə təyin olunmuş növbədənkənar qurultay qeyri-müəyyən vaxta qədər təxirə salınıb.

Qeyd edək ki, bir müddət əvvəl Federal Milli Mədəni Muxtariyyətin bir qrup üzvü növbədənkənar qurultayın keçirilməsi təşəbbüsü ilə çıxış edib. Qurultaya hazırlıq işlər ilə bağlı yaradılan Təşkilat Komitəsinin sədri Tahir Hacıyevin imzası ilə "AzərRos"un Federal Şurasının sədri Mehriban Sadıqovaya və "AzərRos"un prezidenti Asif Məhərrəmova ünvanlanan məktubda növbədənkənar qurultay keçirmək istəyən şəxsləri bu addıma vadar edən səbəblərdən bəhs olunub. Bildirilib ki, onların narazılığına başlıca səbəb qurumun prezidenti A. Məhərrəmovun fəaliyyəti və davranışıdır. Konkret olaraq, "AzərRos"un fəxri prezidenti Söyün Sadıqov və Ağsaqqallar Şurasının sədri Abbas Abbasovun xahişi ilə A. Məhərrəmovun qurumun rəhbəri seçilməsindən sonra "AzərRos"un 2 il ərzində münaqişə, intriqa və şayiələr məkanına çevrildiyi vurğulanıb. Məktubda A. Məhərrəmovun "AzərRos"u dağıtdıqdan sonra azərbaycanlıların digər təşkilatlarının məhvinə başladığı, habelə onun səyi nəticəsində 1998-ci ildən azərbaycanlıların Rusiya və digər ölkələrdəki fəaliyyəti haqqında audio-video materialların, habelə "AzərRos"un bütün arxivinin məhv edildiyi bildirilib.

Xatırladaq ki, "AzərRos"a əvvəllər Söyün Sadıqov rəhbərlik edib. Daha sonra isə S. Sadıqov təşkilat rəhbərliyindən istefa verib. 2013-cü il yanvarın 25-də təşkilatın V qurultayı keçirilib. Qurultayda Ağsaqqallar Şurası yaradılıb. Ağsaqqallar Şurasına Abbas Abbasov, qurumun sədri vəzifəsinə isə Asif Məhərrəmov seçilib.

# Həbsdən çıxıb YAP-a üzv olan gəncdən qəribə açıqlamalar

## **Elsevər Mürsəlli:** "Bu ölkədən, bu aləmdən bezmişəm, iyrənmişəm, bəzən türmə üçün darıxıram"



Elsevər Mürsəlli

**1 il həbs cəzası çəkib azad olunduqdan sonra üzvü olduğu NİDA Vətəndaş Hərəkatından çıxıb YAP-a girən gənc Elsevər Mürsəlli dünən özünün facebook səhifəsində mətbuat üçün iki açıqlama yayıb. E.Mürsəlli birinci açıqlamasında bildirib ki, o, 15 günlük internetlə bağlı hər şeydən uzaqlaşır.**

Səbəbini isə çox bezdirici bir həyat olması ilə izah edib: "Bu ölkədən, bu aləmdən bezmişəm, iyrənmişəm. O qədər tənha bir həyat istəyirəm ki, ətrafımda kitablardan başqa heç nə olmasın. İnanırsınız, bəzən türmə üçün darıxıram, çünki orda kitablarım və mən olurdum. Özünüzə yaxşı baxın, inşallah, yeni dönüşdən sonra daha ağıllı paylaşımlarla sizlərin nifrətini deyil, hörmətini qazanmaq istəyirəm. İstər müxalifətin, istərsə də iqtidarın. Bu günə kimi qəlbini qırdığım hər bir müxalifətçidən üzr istəyirəm".

**Mürsəlli ikinci açıqlamasında isə Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyevlə işbirliyində olmaq niyyətində olduğunu, lakin artıq niyyətindən daşındığını bildirib:** "Gedib onunla görüşüb, söhbətləşdikdən sonra onun mənə etdiyi təkliflərin reallığa cavab vermədiyini gördüm. Və Bakıdan qayıtdıqdan sonra götür-qoy etdim və qərara gəldim ki, onunla işbirliyi istəyimə son qoyum. Buna səbəb isə çox amillərdir. Birincisi, o adamın xalq arasında heç bir çəkisi olmadığının şahidi oldum, ikincisi isə mənə təkliflərini heç cür qəbul edə bilməzdim... Onun mənə təklifləri YAP-dan birdəfəlik çıxmağımla bağlı idi. H.Hacıyevlə işbirliyinə getdiyimə görə müxalifətdən də mənə təzyiqlər oldu. Onların da iradını qəbul edirəm".

**Elsevər Mürsəllinin açıqlamasına Hafiz Hacıyev münasibət bildirib. Onun dediyinə görə, Mürsəllini radikallıqdan birdəfəlik çəkindirmək, ona dəstək vermək istəyib:** "Elsevər Mürsəlli həbsdən çıxandan sonra müəyyən məsələləri səmimi etiraf etdi, açıqlama yaydı. Bundan sonra onunla keçən həftə partiyamızın qərargahında görüşdüm. Bu qərara gəldik ki, yaxın vaxtlarda bir daha müzakirələr aparaq. NİDA təşkilatının üzvləri bizimlə danışıqlar aparırlar. Bu çox normal haldır. Onların hamısı bizim övladlarımızdır. Biz övladlarımıza qarşı gedə bilmərik. Ümid edirəm ki, danışıqlar davam etdiriləcək və ortaq məxrəcə gəlinəcək".

**H.Hacıyev E.Mürsəlliyə yeni üzv olduğu YAP-dan çıxmaq təklifini verdiyini təsdiqlədi:** "Dedim YAP böyük partiyadır, orada yüz minlərlə gənc var və orada səmərəli fəaliyyətin mümkün olmayacaq, gəl bizim partiyaya. YAP-ın içində elə adamlar var imkanı olsa dövlətçiliyin əleyhinə yüz oyunlardan çıxarlar. Elsevər təklifi müsbət dəyərləndiməyibsə, öz işidir. Əməkdaşlığa nöqtə qoyur, vergül qoyur, nida qoyur - qoysun, öz işidir. Bizim qapımız yenə açıqdır".

❑ E.SEYİDAĞA



Rəcəb Abdullatipov

# Prezidentin qardaşı Azərbaycanla biznesə görə həbs olundu

**Dağıstan prezidenti Ramazan Abdullatipovun qardaşı, Federal Miqrasiya Xidməti İdarəsinin rəhbəri Rəcəb Abdullatipov hüquq-mühafizə orqanları tərəfindən saxlanılıb.**

"Qafqazinfo" "kavkazpress.ru"ya istinadən xəbər verir ki, hazırda prezidentin qardaşı haqda araşdırmaya başlanılıb. "Böyük Alveç" ləqəbi ilə tanınan Abdullatipov sifarişli qətllər, xüsusən də xarici ölkələrdən, o cümlədən Azərbaycandan Rusiyaya qaçaqmal yolu ilə spirt daşınmasında və digər fırıldaqlarda vasitəçi rol oynamaqda ittiham olunur. Məlum olub ki, Dərbənd şəhərinin "kriminal sahibi" kimi tanınan əslən azərbaycanlı Rafiq İdrisov ("Krot") Rusiyada hazırlanmış adı ilə spirtin Azərbaycandan bu ölkəyə qaçaqmalçılıq yolu ilə gətirilməsi və sənədləşdirmə işlərinin aparılmasını həyata keçirib.

"Krot" bunun üçün Rəcəb Abdullatipov da daxil olmaqla, bir sıra məmurların yardımından istifadə edib və onlar arasında nüfuz qazanıb. İdrisov Abdullatipovun vasitəçiliyi ilə yaxın adamlarını yüksək vəzifələrə təyin etdirməyə də cəhd edib. Azərbaycandan Rusiyaya spirtin kontrabanda yolu ilə daşınması isə Nəriman Əliyev adlı şəxsə məxsus firma vasitəsilə həyata keçirilib. Əliyev qeyri-leqal əməliyyatla bağlı danışmaq istədiyini bildirdikdə isə İdrisov 2007-ci ildə Nərimanı və həyat yoldaşını qətlə yetirir. Rəsmi Moskva işin üstünü açdıqdan sonra Dağıstana istintaq briqadasını göndərir, bütün təşkilatçı və icraçılar saxlanılsa da "Krot" Azərbaycana oradan da İsrailə qaçmağa müvəffəq olur.

YENİ MÜSAVAT
N 8 (6036) 14 yanvar 2015

**"Bizim qonaq" rubrikasının qonağı Müsavat Partiyasının eks - başqanı, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbərdir. Söhbətin dördüncü, sonuncu hissəsini təqdim edirik.**



# "Hakimiyyət Müsavat Partiyasını ələ keçirmək istəyirdi"

## İsa Qəmbər: "Müsavat 1993-cü ildən bu yana hakimiyyətlə heç zaman heç bir sövdələşməyə getməyən yeganə partiyadır"

(əvvəli ötən saylarımızda)

***- İsa bəy, sizcə, bu prosesdə hakimiyyətin rolu var idimi?***

- Təbii, var.

***- Nə şəkildə? Nə etmək istəyirdilər?***

- İndi bu daha aydın görünür. Hakimiyyət Müsavat Partiyasını öz nəzarətinə götürmək istəyirdi. Əvvəlcə ikivariantlı hərəkət edirdilər. Düşünürdülər ki, partiya qurultay keçirməyəcək, bununla da məni, bütünlükdə Müsavatı səmimi olmamaqda ittiham edəcəklər. Ya da ki, qurultay keçirilsə, partiyanı nəzarətə keçirməyə cəhd edəcəklər. Qurultay ərəfəsində ikinci variantı seçdilər. Çox arxayın davranırdılar. Onlara elə gəlirdi ki, buna nail olacaqlar. Nail olmadılar, ona görə də indi partiyadaxili gərginliyi davam etdirməyə çalışırlar. Bu o qədər göz önündə olan bir məsələdir ki, burada diskussiyaya ehtiyac duymuram.

***- Qubad İbadoğlunun rəhbərliyi altında ADR adlı bir hərəkat qurulur. Sizinlə məsləhətləşiblərmi, xeyir-duanızı alıblarmı?***

- Yox.

***- Gedişatı izləyirsinizmi?***

- Mən hər şeyi izləyirəm.

***- Bu gün Müsavat Partiyasının üzvü olan bir sıra şəxslər, hətta funksionerlər o hərəkatdadırlar. Sizin düşüncənizlə Müsavat Partiyasının rəhbərliyi bu məsələyə necə münasibət bəsləyəcək? Onlarla davam edəcəklər, yoxsa yolları ayıracaqlar?***

- Partiyanın bu məsələdə mövqeyi çox aydındır. Mən də həmin mövqe ilə razıyam. Birinci şərt hər bir müsavatçının nizamnaməyə əməl etməsidir. Nizamnaməyə əməl olunursa, heç bir partiya üzvü hüquqi intizam tədbirləri ilə qarşılaşa bilməz. Ancaq nizamnamə pozuntusa varsa, o məsələ gündəmə gəlir və gələcək. İndi o "narazılar" deyilən kəsim nizamnaməni pozmadan hansısa bir şəkildə təşkilatlanmağa cəhd edir. Yaşayarıq, nizamnaməni pozmadan hara qədər hərəkət edə biləcəklərini görərik.

***- İsa bəy, gələcəkdə ADR-in Müsavat Partiyası daxilində fraksiyaya çevrilməsi ehtimalı nə qədərdir?***

- Bu məsələ məni maraqlandırmır. Özləri qurumlarını necə istəyirlər, elə də adlandırsınlar.

***- Müstəvini bir qədər böyütmək istəyirik. Müsavat Partiyası qurultayını keçirdi, strukturlaşdı, indi də partiya kimi normal funksiya göstərir. Müsavat toparlayıcı, bütün düşərgənin bir arada olması və qüvvələrin birləşdirilməsi istiqamətində təkliflərlə çıxış edir, amma bir sıra təşkilatlardan, o sıradan AXCP-dən, Mili Şuradan tərs, bir az da kəskin və xoşagəlməyən ifadələrlə müşahidə olunan reaksiyalar gəlir. Bu prosesin sonunu necə görürsünüz? MSDM-in bu məsələdə bir təklif paketi varmı? MSDM-in rəhbəri olaraq bu məsələyə 2015 rakursundan baxışınız necədir? Xalq Cəbhəsinin, o sıradan Milli Şuranın rəhbərliyi Müsavat Partiyası birlikdəlik təklifinə isti baxmır. Siz bu məsələyə necə baxırsınız, 2015-də birlik mümkün ola bilərmi?***

### "İndiki mərhələdə də koalisiya yaratmağa tələsməyin anlamı yoxdur"

- Milli Strateji Düşüncə Mərkəzi ilə Müsavat Partiyası bir-birilərinə yaxın qurumlar ola bilərlər. Ancaq onlar eyni təşkilat deyillər. Müsavat Partiyasının öz missiyası, gündəmi, funksiyaları var, Milli Strateji Düşüncə Mərkəzinin isə öz yanaşmaları var. Mən çox sevinirəm ki, Azərbaycanda Strateji araşdırma mərkəzi adlı bir neçə qurum var. Son illərdə çoxları özünü elə aparır ki, sanki durumu yenidən dəyərləndirməyə, problemlərlə bağlı bir beyin fırtınası etməyə heç bir lüzum yoxdur. Bu cür yanaşmalar sözün doğrusu, məni narahat edir. Milli Strateji Düşüncə Mərkəzinin yaranma səbəblərindən biri də Azərbaycanın problemlərinə, bugününə və gələcəyinə yenidən bir baxış keçirməkdir. Təbii, 2015-ci il seçkilərinə biz laqeyd ola bilmərik. Çünki demokratiya məsələsini Azərbaycanın ümummilli məsələlərindən biri hesab edirik. 2015-ci ilin parlament seçkiləri də Azərbaycanda demokratik dəyişikliklərə başlamaq baxımından önəmli bir məqamdır. Cəmiyyətdə siyasi qüvvələrin birliyi məsələsinə doymuş bir baxış var. İnsanlar siyasi qurumların bir araya gəlib ayrılmalarından yorulub. Görünür, bu məsələdə bizim də yanlışlarımız olub. Əminəm ki, 1989-cu ildən bu günə qədər Azərbaycanda nə təşkilat yaratmışıqsa, hamısının ümumi böyük missiyası ilə yanaşı konkret hədəfləri də olub. O təşkilatların çoxu konkret hədəflərinə çatmış qurumlardır. Tutaq ki, Demokratik Konqres Əbülfəz Elçibəyin Bakıda olmadığı dönəmdə, Əliyev rejiminin Azərbaycanı sürüklədiyi geopolitik riskləri önləmək, Elçibəyin legitim prezident statusunun qorunub saxlanması və onun arxasında ciddi siyasi qüvvənin davam etməsi baxımından önəmli bir missiya idi. Bu missiyanı həyata keçirdik. Ölkədə demokratik seçkilərə nail olmadıq, hakimiyyət dəyişikliyini həyata keçirə bilmədik, amma o dediyim hədəfə çatdıq. Eləcə də SİDSUH. 1998-ci ildə seçkiləri boykot etsək də ən güclü seçki islahatları hərəkatı yaratdıq. Qurum Əliyev rejimi dönəmində ən önəmli müqavimət hərəkatlarından biri oldu və bir sıra konkret nəticələrə nail oldu. Məsələn, senzura ləğv edildi. Yaratdığımız digər qurumlar haqqında da eyni fikirləri söyləmək olar. Sadəcə, görünür, biz onları yaradanda cəmiyyətə hədəflərimizi kifayət qədər dəqiq şəkildə deməmişik. Əsasnamə sənədlərində də sadaladığım məqamlar ətraflı göstərilmədiyi üçün sonra müəyyən arzuolunmaz durumlar yaranıb. Məsələn, 2005-ci ildə yaratdığımız "Azadlıq" bloku. O zaman öndə olan aparıcı müxalifət partiyalarının birliyi kimi "Azadlıq" bloku zamanın şərtləri daxilində mümkün olan ciddi mücadilə verdi, ciddi nəticələr əldə etdi. Çox təəssüf, hakimiyyət seçkinin nəticələrini total şəkildə saxtalaşdırmaqla, dinc nümayişçiləri zorakılıqla dağıtmaqla nəticələrin rəsmiləşməsinə imkan vermədi. "Azadlıq" missiyasını yerinə yetirmişdi, onu süni surətdə saxlamaq, uzatmaq əlavə fəsadlara səbəb olardı. İndiki mərhələdə də koalisiya yaratmağa tələsməyin anlamı yoxdur. Mənim fikrimi soruşan olsa, bunu məsləhət görməzdim. Əgər yaratmaq qərarına gəlinəcəksə qurumun missiyası, hədəfləri və vəzifələrinin çox konkret göstərilməsini arzuolunan sayıram. Müsavat Partiyası hər zaman olduğu kimi, yenə də toparlayıcı qüvvə kimi fəaliyyət göstərmək əzmindədir. Müsavat Partiyası Milli Şuranın üzvü olduğu dönəmdə də - 2013-cü il prezident seçkisindən sonra bir sıra siyasi partiyalara əməkdaşlıq və müttəfiqlik təklif etmişdi. Ancaq bu, qəbul edilmədi. Milli Şuradan ayrılanda da Müsavat Partiyası bəyanatında göstərdi ki, biz qurumdan ayrılsaq da həm MŞ, həm də qurumda təmsil olunan siyasi partiyalarla funksional işbirliyinə hazırıq. O baxımdan Müsavatın indi toparlayıcı təşəbbüslə çıxış etməsinin hansısa məsələdə mövqeyini dəyişməsi kimi təqdim edilməsi kökündən yanlışdır. Təbii, bu məsələdə siyasi partiyaların mövqelərinə hörmətlə yanaşmalıyıq, çalışmalıyıq ki, hər kəs öz mövqeyinin məsuliyyətini daşısın.

***- Sizcə, Müsavat Partiyası parlament seçkisinə gedəcəkmi?***

- Müsavat Məclisi seçkidə iştirak mövqeyini bəyan edib.

***- Bəs hansı halda Müsavat Partiyası seçkidə iştirak etməyə bilər?***

- Bunun üçün çox ciddi əsaslar olmalıdır. Məsələ burasındadır ki, seçkidə iştirak uzun bir dönəm, fədakar iş tələb edən hədəfdir. Seçkini boykot etmək isə xüsusən də passiv boykot, bir günün içərisində qəbul edilən qərardır. Bir bəyanatla bu məsələ bitər. Ona görə də boykot haqqında qərar son tədbir kimi nəzərdən keçirilə bilər. Məncə, Müsavat da, digər ciddi siyasi qüvvələr də seçkidə iştiraka çalışmalıdır.

***- Hakimiyyətin davranışını proqnozlaşdırmaq mümkündürmü? Nəsə dəyişə bilərmi? Dünyadakı bütün siyasi, iqtisadi amilləri nəzərə alsaq, 2015-də parlamentin tərkibini dəyişmək şansı yarana bilərmi?***

- Şərti olaraq 3 variant var. Birinci variant - hakimiyyət yenə də müxalifətsiz parlament yaratmağa çalışacaq. İkinci variant -2010-cu ilə qədərki vəziyyətə qayıdılaraq Milli Məclisə öz dairəsində gerçək qələbə qazananlardan bir neçə müxalifətçinin təmsilçiliyinə razılaşacaq, üçüncü variant - seçkiyə oxşayan seçki keçirilərək, xeyli dairədə qələbə qazananların parlamentdə təmsilçiliyinə imkan veriləcək. Əgər köklü dəyişiklik olmayacaqsa, orta variant daha inandırıcıdır. Məhz buna görə də müəyyən qüvvələr həyəcanlanıblar. Hesab edirlər ki, yenə də 1995 - 2010-cu illər arasındakı kimi, bir neçə müxalifətçinin təmsilçiliyinə imkan veriləcək. Təbii, bu variantda da kimlərin parlamentdə olacağına hakimiyyət qərar verəcək. Bəziləri indidən narahatdırlar ki, birdən onlar bu siyahıda olmazlar. Müsavat baxımından bunlar gülünc yanaşmalardır. Müsavat 1993-cü ildən bu yana hakimiyyətlə heç zaman heç bir sövdələşməyə getməyən yeganə partiyadır.

***- Siz "yeganə" sözünü nadir hallarda işlədirsiniz. Demək, bu, məlumatdır...***

- Əminəm ki, bu məsələdə sizin məlumatlar məndən daha çoxdur. Müsavat yeganə partiyadır ki, lideri və rəhbərliyi parlamentə faktiki olaraq buraxılmayıb. Kimlərsə öz davranış modellərini Müsavata aid etmək istəyirlər. Guya Müsavat hakimiyyətlə danışacaq, bir neçə yer alacaq, onlar da kənarda qalacaqlar.

***- Belə bir şans olsa, bazarlıq təklif olunsa, Müsavat getməzmi?***

- Bazarlığa, separat danışıqlara biz heç zaman getməmişik, getmərik də. Biz açıq, şəffaf dialoq, azad seçki tərəfdarıyıq. Bəziləri bu durumu öz arşınları ilə ölçürlər. Əslində ürəklərində bilirlər ki, Müsavat buna getməz, ancaq düşünürlər ki, 2005-ci ildə olduğu kimi, yenə də Müsavatın 3-5 dairədəki qələbəsi tanınar, onlar kənarda qalar. Özləri bunu etmək istəyirlər, ancaq bizə aid edirlər. Müsavat isə bu məsələdə sakitdir, biz sövdələşməyə getmirik, kimin kənardan nə deyəcəyi də bizi xüsusi olaraq ilgiləndirmir. Amma dediyim 3 variant ciddi təsirlər olmayacağı situasiyaya aiddir. Ciddi müsbət dəyişikliklər olsa, təbii, MM-in tərkibində böyük dəyişikliklərin olması labüddür. Postsovet məkanında köklü demokratik dəyişikliklərin qarşısını alan əsas amil Moskvadır. Moskva da artıq ciddi böhrana daxil olub. Əksər araşdırmaçılar hesab edir ki, böhran ya Putin rejiminin getməsi ilə nəticələnəcək, ya da Putin özü rejimi liberallaşdırmağa məcbur olacaq. Bu durum isə Güney Qafqaza, Azərbaycana təsir etməyə bilməz. Eləcə də neftin qiymətinin enməsi ilə sosial-iqtisadi gərginliyin artması amili duruma çox ciddi təsir edə bilər. Mən fikrimdə qalıram - Əliyev rejimi mövcudiyyətinin tam əksəriyyətini yaşayıb və mövcudiyyətinin son dönəminə daxil olub. Qərblə, ABŞ-la bu cür qarşıdurma da bu mənim dediyimi şərtləndirən amillərdən biridir.

***- Hakimiyyətlə açıq dialoq tərəfdarısız. Bəs Qərblə Müsavat Partiyasının hansısa qapalı danışıqları olubmu, ya varmı? Çünki elə durum yaranıb ki, Qərb istər-istəməz Azərbaycanda müttəfiqlər axtarmalıdır.***

- ABŞ diplomatları ilə kontaktlarımız 1989-cu ildən başlayıb. O zaman ABŞ-ın Moskva böyükelçiliyindən 2 diplomat Bakıya gəlmişdi, AXC-də görüş istəmişdilər, ilk təmaslar o zamandan başladı. O gündən indiyə qədər nə ABŞ, nə də Avropa diplomatları ilə mənim elə bir söhbətim olmayıb ki, onun ortaya çıxmasından narahat olum. Təbii, bir çox həssas mövzuları müzakirə etmişik. Mən dediklərimin hamısının arxasında durmağa hazıram.


musavat.com

### "Cəmiyyətdə siyasi qüvvələrin birliyi məsələsinə doymuş bir baxış var. İnsanlar siyasi qurumların bir araya gəlib ayrılmalarından yorulub"

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 8 (6036) 14 yanvar 2015



# Cənnət niyə bizdə deyil?

Hüseynbala SƏLİMOV

**Fransada baş vermiş terror olayı bir neçə gün ərzində dünyanın informasiya məkanını tamam zəbt etdi desək, bir o qədər də ifrata varmarıq. Təbii ki, çox müdhiş hadisədir və bütün terror hadisələrinə münasibət necədirsə, bu hadisəyə də elə münasibət bəslənilməlidir, bunun başqa bir yolu yoxdur. Söz yox ki, bundan bir qədər əvvəl səhv etmiriksə, Pakistanda da dəhşətli bir terror hadisəsi baş vermişdi...**

Mən deyə bilmərəm kim daha çox terror törədir, amma onu bilirəm ki, bütün dinlərin təmsilçiləri terrordan eyni qədər əziyyət çəkir...

Burada sırf terror fenomeni haqqında yazmayacam. Bu haqda bir neçə həftə bundan əvvəl, Pakistanda terror hadisəsi törədilərkən yazmışdım...

Mən bizlər və onlar haqqında yazmaq istəyirəm. Biz deyəndə özümüzü, yəni müsəlman dünyasını nəzərdə tuturam. Onlar isə xristianlardır...

Mənim artıq əlli yaşım var. Həyat elə gətirib ki, xristianlarla çox təmasda olmuşam, onları- yəni, mədəniyyətlərini, ədəbiyyatlarını, dinlərini və hətta mentalitetlərini başa düşməyə çalışmışam...

Bilmirəm bu, məndə nə qədər alınıb... Amma hesab edirəm ki, xristian dünyasını yetərincə başa düşürəm. Baxmayaraq ki, MDB-nin sərhədlərini cəmi üç dəfə keçmişəm - bir dəfə ABŞ-da olmuşam, iki dəfə də Polşada... Son vaxtlar başqa ölkələrə getməyə o qədər də həvəs duymamışam...

Bir az qeyri-təvazökarlıq olsa da, İ.Kant Genisberqdən (indiki Kalininqrad) cəmi bircə dəfə kənara çıxıb və çox uzağa da getməyib. Amma bu, ona bütün ömrü boyu Genisberq universitetində coğrafiyadan dərs deməyə mane olmayıb. Bir azca kənara çıxmaq olsa da, qeyd edim ki, İ.Kant heç bir vaxt fəlsəfədən dərs deməyib, amma bu, ona dünyanın ən böyük filosoflarından biri olmağa və min illiyin ən böyük fəlsəfi əsərlərindən birini yazmağa mane olmayıb...

Qərəz, gələk mətləb üstünə. Mənim xristian dünyası haqqında qənaətim nədir? Bu insanlar Yer üzündə əsl cənnət yarada biliblər... Hətta ən geridə qalmış xristian ölkəsinə baxıb görürsən ki, yox, burada hər şey öz qaydasındadır...

Bir neçə gün bundan əvvəl dinlərlə bağlı bir yazıda bu xüsusda bir neçə abzas yazdığımdan indi burada təkrara varmayacam. Yox, mən demirəm ki, hansısa din digərindən, tutaq ki, xristianlıq islamdan və yaxud da islam xristianlıqdan üstündür. Xeyr, mən heç vaxt belə müqayisələr aparmaram...

Həm də həmişə belə düşünmüşəm ki, məsələ dinlərdə deyil, onların qavranılmasındadır... Bütün böyük, səmavi dinlər faktiki olaraq eyni şeyləri deyirlər. Amma görünür ki, insanlar onları fərqli dərk edirlər. Bizim problemimiz nədədir? Biz öz dinimizi hələ də qavraya bilməmişik. Ən azı ona görə ki, ata-babalarımız əsrlər boyu hətta etdikləri duaların, dini ayinlərin dilini başa düşməyiblər...

Şükür ki, son illərdə tərcümələr meydana çıxıb. Amma bu tərcümələrə münasibət hələ də mürəkkəbdir. Bizim din adamları təkəbbürlərindən bir sözü əvvəlcə ərəbcə deyir, sonra qolunu-qıçını sındıraraq onu türkcə söyləyirlər...

Eləsi var ki, hətta verilişlərə girişi ərəb dilində edir. Düşünürsən ki, əcəba, bu adam nə edir? Nə göstərmək istəyir biz zavallılara? Bəlkə o, nümayiş etdirmək istəyir ki, bəs mən ərəb dilini bilirəm? Nə olsun? Mən də rus dilini, bir az da ingilis dilini bilirəm... İndi mən nə edim? Yazının girişini rus dilində və yaxud da ingilis dilində yazım?..

Nə isə. Etiraf etmək lazımdır ki, islam əsrlər boyu böyük əksəriyyət üçün qaranlıq olub, buna ehkamlar şərait yaradıb... İnsanlar son vaxtlara qədər ilahi həqiqətlərə bilavasitə vaqif ola bilməyiblər, bunu mollanın, axundun dilindən eşidiblər. Təbii ki, mollalar da, axundlar da bura bir qədər öz "həqiqətlər"ini qatıblar...

Xristian dünyasındakı böyük inkişaf göz qabağındadır. Nədir bu inkişafın səbəbi? Bu xüsusda mən hələ də bizimkilərin dilindən ağıllı-başlı bir şey eşitməmişəm. O xüsusda bizimkilərin dedikləri "konspirologiya"dan başqa bir şey deyil... Ona görə də mən bu deyilənləri ciddi qəbul edə bilmirəm...

Bəli, kimsə deyə bilər ki, vaxt vardı, xristianlar bizdən öyrənirdilər. Düzdür!!!

Amma sonra nə oldu? Nə baş verdi, xristianlar nə etdilər ki, bizdən bu qədər irəli gedə bildilər? Onlar bizim bilmədiyimiz nəyi başa düşdülər? İnanın, mən bu suallar üstündə çox baş sındırmışam. Gəldiyim qənaət budur ki, onlar dünyəvi həyatda dinin yerini müəyyən edə bildilər... Bəli, onlar bunu etdilər... Biz isə hələ də bunu edə bilməmişik...

# Tarif Şurasından 2 qəpik qərarı

# Benzin qiymətlərə "od salacaq"

## Ekspertlər deyir ki, yanacağın bahalaşması nəqliyyatda gediş haqqının və xidmət sahələrində qiymət artımlarına gətirib çıxara bilər; taksilər artıq qiyməti qaldırıb; un məhsullarının da bahalaşacağı gözlənilir

**Dünya bazarında neftin qiyməti görünməmiş həddə qədər enib. Hazırda bir barel neft 50 dollar civarındadır. Buna uyğun olaraq da çox ölkələrdə benzinin də qiymətinin ucuzlaşdığı bir vaxtda Azərbaycanda benzin bahalaşdı. Yanvarın 12-də axşam saatlarında Tarif Şurasının iclasında neft məhsullarının tariflərinə baxıldı və müvafiq tarif tənzimlənməsi aparıldı.**




Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, ölkədə həm istehsal olunan, həm də idxal olunan avtomobil benzini, dizel yanacağı və maye qazın hər litrinin topdansatış qiymətinə 2 qəpik əlavə edilməklə yol vergisinin tətbiqi təmin olundu.

Yol vergisi əlavə olunduqdan sonra Aİ-92 markalı avtomobil benzininin pərakəndə satış qiyməti 1 litr üçün 72 qəpik, dizel yanacağının pərakəndə satış qiyməti isə 1 litr üçün 62 qəpik müəyyən edildi.

Tarif Şurasının bu qərarı cəmiyyətdə ciddi narazılığa səbəb oldu. İstər mediada, istərsə də sosial şəbəkələrdə gedən müzakirələrin də əsas mövzusu benzinin qiymətinin 2 qəpik artması oldu. Hazırda cəmiyyəti bundan sonra sərnişindaşımada və digər sahələrdə xidmət haqlarının artıb-artmayacağı sualı narahat edir.

**"Yeni Müsavat"a müsahibəsində hökumətin bu qərarını təhlil edən iqtisadçı ekspert, Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban bildirdi ki, ölkədə benzinin bahalaşması ilə bağlı iqtisadi zəmin yox idi:** "Burada əsas məsələ Azərbaycanın iqtisadi vəziyyəti ilə bağlıdır. Buna görə də hökumət 2014-cü ilin dekabrında Vergi Məcəlləsinə dəyişikliklər etdi və yol vergisini artırdı. Bu 2 qəpiyin Dövlət Neft Şirkətinə aidiyyəti yoxdur, bu, vergi olaraq dövlət büdcəsinə gedəcək. Bu iki qəpiklə hökumət büdcədə nəyəsə nail olmağı hədəf götürməyib. Bir ildə maksimum 3 milyon litr benzinin istehlak edildiyini nəzərə alsaq, bunu 2 qəpiyə vuranda elə də böyük rəqəm etmir. Hökumət bu 2 qəpiyin hesabına daha uzaqgörən addımlara hədəflənib və bu prosesin multieffektiv təsirini gözləyir. Bu təsir özünü bir neçə ay sonra göstərəcək. Bu da hökumətin sonrakı qərarları ilə birbaşa bağlı olacaq.

Benzinin qiymətinin bahalaşması müxtəlif sahələrdə qiymət artımları üçün ilkin addım rolunu oynayır. Benzinin 2 qəpik bahalaşması nəqliyyatda gediş haqqının artmasına səbəb ola bilər, nəqliyyat sektorundakı artım xidmət sahələrində qiymət artımlarına gətirib çıxara bilər. Çünki nəqliyyat xərcləri bütün sahələrdə mühüm yer tutur. Deməli, hər sahədə 5-10% qiymət artımı gözləmək olar. Bu da ümumi ticarət dövriyyəsinin artmasına zəmin yaradacaq. Həmin gəlirlərin vergiyə cəlb olunan hissəsi isə dövlət büdcəsinə daha çox vəsaitin yönəlməsinə əsas verəcək".



**Ekspertin fikrincə, hökumətin həyata keçirdiyi bu vergi siyasətinin səbəbi, 2015-ci ilin büdcəsi formalaşarkən neftin bir barelinin qiymətinin 90 dollar götürülməsidir:** "Bu il büdcə 1,7 milyard kəsirlə ilə başlayıb. Bu çox böyük kəsirdir və Azərbaycanda dövlət büdcəsində heç vaxt bu qədər böyük kəsir olmamışdı. Artıq neftin bir bareli 45 dollardır, yəni büdcədə nəzərdə tutulduğundan iki dəfə ucuzdur. O zaman belə düşünürdülər ki, neftin ucuzlaşması müvəqqəti xarakter daşıyır və yenidən əvvəlki həddə qədər bahalaşa bilər. Ancaq neftin qiymətinin nə qədər düşməsini proqnoz etmək artıq mümkün deyil, bu gün bir bareli 45 dollara satılan neft 30-35 dollardan da aşağı düşə bilər. Belə olan şəraitdə büdcənin kəsiri iki dəfədən çox artaraq 3-4 milyarda çata bilər. Düzdür, 2014-cü ildə büdcəyə 1,3 milyard manat qənaət edilmişdi. Bu, qismən o kəsiri qapatsa da, real kəsiri əvəz etmək mümkün deyil.

Burada ilkin variant Neft Fondundan transferlərin edilməsidir. Ancaq Neft Fondundan bu il büdcəyə 10,3 milyard manat transfer olacaq və bundan daha artıq transfer etmək Neft Fondunun kəsirlərini artıra bilər. Neft Fondunun builki gəlirləri 7 milyard dollar nəzərdə tutulur. Ancaq bu qurumun da öz xərcləri var, büdcəyə transferdən əlavə, Cənub qaz dəhlizi layihəsinə 3 milyard ayırmalar olacaq. Belə olan halda Neft Fondundan daha 3 milyard transfer etmək fondun illik kəsirlərini artıra bilər və hökumət buna getməz. Bu səbəbdən hökumət ölkənin daxili resurslarından, yəni vətəndaşların xərcləmələrindən istifadə etmək qərarına gəlib".

**İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyev isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, burada hər hansı gəlir artımından söhbət getmir, dəyişən sadəcə yol vergisinin ödənilməsi mexanizmidir:** "Əvvəllər avtonəqliyyat vasitələri texniki baxışdan keçərkən yol vergisi ödəyirdilər. Yeni qaydalara görə, benzin alarkən yol vergisini də ödəmiş olacaqlar. Benzinin hər litrinə artırılan 2 qəpik yol vergisinə hesablanacaq. Burada sadəcə yol vergisinin ödənilməsi mexanizmi dəyişilib. Əgər əvvəllər bu birdəfəlik ödəniş şəklində həyata keçirilirdisə, artıq sürücülər yol vergisini hissə-hissə və uzun müddətə ödəyəcək. Əvvəllər avtomobildən nə qədər istifadə edilməsindən asılı olmayaraq yol vergisi müəyyən olunmuş məbləğdə ödənilirdi, indi isə avtomobildən daha az istifadə edən şəxs daha az vergi ödəyəcək".

**Abbas Əliyev onu qeyd etdi ki, yol vergisinin benzinin qiymətinə əlavə olunması sərnişin daşımada xidmət haqlarının artırılmasına əsas vermir:** "Nəqliyyat Nazirliyindən və Bakı Metropolitenindən gediş haqlarının artırılması ilə bağlı heç bir müraciət daxil olmayıb və Tarif Şurasında bu məsələ müzakirə olunmur".

Qeyd edək ki, sərnişindaşıma xidməti ilə məşğul olan dövlət qurumları mətbuata açıqlamalarında gediş haqlarının artırılması ilə bağlı hər hansı müzakirələrin aparılmadığını bildiriblər.

Bakı Metropoliteni" QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayev isə "Anspress"ə açıqlamasında bildirib ki, metronun qiyməti ilə bağlı Tarif Şurasına müraciət olunmayıb və ümumiyyətlə, bu məsələ Bakı Metropolitenində müzakirə edilmir.

Nəqliyyat Nazirliyinin mətbuat katibliyinin rəisi Namiq Həsənov isə APA-ya açıqlamasında deyib ki, Nəqliyyat Nazirliyi ictimai nəqliyyatda gediş haqlarının artırılması ilə bağlı Tarif Şurasına müraciət etməyib və hələlik qiymət artımı gözlənilmir.

Rəsmilərin arxayın açıqlamalarına baxmayaraq, yanvarın 13-də qiymət artımı səhər saatlarından artıq özünü göstərməyə başlayıb. Bundan istinadən edən bəzi taksi sürücüləri süni şəkildə qiymətləri artırıblar. Onlar bunu benzinin qiymətinin bahalaşması ilə əlaqələndiriblər. Ümumilikdə paytaxtda apardığımız müşahidələr də onu göstərdi ki, artıq taksilər gediş haqqını qaldırıblar. Taksilərin təklif etdikləri qiymətlər ötən günlə müqayisədə 1, 2 manat fərqlidir.

**İqtisadçı Vüqar Bayramov da taksilərin gediş haqqını qaldırmasını təsdiqləyib:** "Benzinin qiymətinin artmasından istifadə etməyə çalışanlar var. Belə ki, bu gün şəhərdən etibarən bəzi işbazlar qiymətləri süni şəkildə artırıblar. Bu gündən taksilərin gediş haqqını artırmaları müşahidə olunur".

Mütəxəssislərin fikrincə, xüsusilə buğdanın qiymətində artım qeydə alınacaq. Doğrudur, dünya bazarında buğdanın qiyməti düşüb. Lakin Azərbaycan Rusiya və Qazaxıstandan buğda alır. Rusiya isə ixrac olunan buğdanın hər tonunda qiymətləri 37 avro bahalaşdırıb. Qazaxıstan da Rusiyanın qiymət artımından bəhrələnərək məhsulunu fərqli qiymətə təklif edir. Azərbaycanda isə 2014-cü ildə əvvəlki ilə nisbətən buğda səpini 114 min hektar azalıb. Bu il su ilə bağlı problemlər də yaranıb, suvarma aparılmayıb. Buna görə də çörəyin qiymətində artımın baş verəcəyi gözlənilir.

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 8 (6036) 14 yanvar 2015

**2013-cü ilin səs-küylü məhkəmə proseslərindən biri də heç şübhəsiz NİDA-çılarla bağlı oldu. Gənclərin məhkəmədəki cəsarətli çıxışları, aclıq aksiyaları və sonda hakimin sifarişli qərarı... Son əfv fərmanı ilə azadlığa çıxan gənc NİDA-çılar Zaur Qurbanlı ilə Üzeyir Məmmədli də elə bu həbsin, əfvin, məhkəmə günlərinin... hekayəsini bizimlə bölüşdülər. Həbsdən sonra ilk geniş müsahibələrini "Yeni Müsavat"a verən gənclər bu günə qədər bilinməyən bir çox gerçəkləri açıqladılar.**

# Həbsdən çıxan NİDA-çılar "Yeni Müsavat"a danışdılar

## Üzeyir Məmmədli: "Onlar çıxmayınca elə bil ki, mən də içəridəyəm"
## Zaur Qurbanlı: "Bəxtiyar Quliyev mənim üçün bağışlanmaz adamdır"

***- Öncə "həmişə azadlıqda, keçmiş olsun" deyim. 1 il 9 aydan sonra türmə həyatınız bitdi... Azadlıqla, bu qərarla bağlı ilk təəssüratlarınız necə oldu?***

*Ü.Məmmədli:*

- Digər siyasi məhbuslardan fərqli olaraq, biz bu müddətin hamısını təcridxanada keçirdik, yəni qapalı kamerada qaldıq. Ona görə də ilk fərqlilik mənim üçün açıq havada daha çox gəzə bilməkdən başladı. Ehtiyacım hava dolu geniş məkana, bir də insanlarla ünsiyyətə idi.

*Z.Qurbanlı:*

- Eyni yerdə qalmışıq deyə təəssüratlarımız təxminən eynidir. Daha çox fiziki məqamlar barədə danışa bilərəm. Çünki mənəvi sevincdən danışmaq yersizdir, digər uşaqlar içəridədir. Bütün gün onları fikirləşirik. Onların azadlığa çıxması üçün nə edə bilərik deyə düşünürük. Təəssürat daha çox fiziki azadlığı hiss etməkdir.

***- Hamınız eyni əfv müraciətinin altına imza atsanız da, hansı məntiqlə olduğu bilinməyən bir "sortirovka" prosesi aparıldı və ikiniz azadlığa buraxıldınız, dördünüz içəridə qaldınız. Siz belə bir seçim aparılacağını təxmin edirdinizmi?***

*Z.Qurbanlı:*

- Hamımız gözləyirdik ki, çıxacağıq. Buna hazırlaşmışdıq, əşyalarımızı evə yollamışdıq. Düzdü, zona köçürülmə ehtimalına görə də əşyalar onsuz da göndərilməliydi. Amma uşaqlar gözləyirdi ki, hamımız çıxaq. Mən Məmmədlə, Üzeyir Rəşadətlə bir kamerada qalırdı. Bizim üçün onlarla sağollaşıb, onları orda qoyub çıxmaq daha çətin oldu. Bilmədik ki, siz demiş, o "sortirovka"nı necə etdilər, yəqin özlərində də məntiqi izah yoxdur.

*Ü.Məmmədli:*

- Bu barədə çox analiz edirdik. Bilirdik ki, hamımızı buraxmayacaqlar.

***- Nəyə əsasən? Sizin məntiqiniz nə idi?***

*Ü.Məmmədli:*

- Son əfvlərin statistikasına baxdıq. Hər dəfə 4-5 nəfərdən artıq siyasi məhbus azad edilmir. Növbəti əfvlərdə də buraxmağa kimsə olmalıdır axı. Bizi eyni vaxtda buraxmaqdan çəkinə də bilərdilər. Amma seçimi necə edəcəkdilər, Zaur demişkən, bunu mən də bilmirdim. Hətta ilk ağlımıza gələn o oldu ki, püşkatma yolu ilə ediblər.

***- Biriniz Rəşadət Axundovla, digəriniz Məmməd Əzizovla sağollaşmaq zorunda qaldınız. Necə keçdi bu mərhələ? Onların sizə sözləri, xahişləri...***

*Ü.Məmmədli:*

- Əfvə hansımızın düşəcəyini bir gün əvvəldən öyrəndik. Məni rəhbərlik çağırdı. Onda artıq bildik ki, nə nədir. Çünki həbsdəsənsə və rəhbərlik səni çağırırsa, az-çox təxmin edirsən. Eşidəndə donub qalmışdım. Qayıdanda artıq Rəşadət bilirdi ki, əfvə düşməyib.

***- Rəşadət çoxmu sarsılmışdı?***

*Ü.Məmmədli:*

- Əslində mən ondan daha çox sarsılmışdım. Həmin gecə cəmi 1-2 saat yatdım, amma o, bütün gecəni yatdı. Rəşadət hazır idi buna, çünki əvvəldən təxmin etmişdik - bir neçəmizi buraxıb, bir neçəmizi saxlayacaqlar. Sağollaşmaq çox çətin oldu. Həbsdə olanların bir sözü var: köhnələrdən kim qalıb? 2 il əvvəlki ilə müqayisədə baxırsan ki, köhnələrdən heç kim qalmayıb. Vəziyyətdən, prosesdən, əvvəlki coşqulardan... Dostlara da deyirəm ki, onlar çıxmayınca elə bil ki, mən də içəridəyəm. İçəridə olmaq daha rahat olardı mənə.



*Z.Qurbanlı:*

- Əvvəldən düşünürdüm ki, mən çıxsam, Məmmədə təskinlik verərəm. O çıxsa, mənə. Amma tərsinə oldu, səhərə qədər Məmməd mənə təskinlik verdi. Sərəncamdan 3-4 gün qabaq üçümüzü çağırmışdılar danışığa. Düşünürdük ki, yəqin üçümüzü buraxarlar. Amma bir kamerada birini saxlayıb, o birini buraxmaq çox daha çətin oldu. Buraxılma ardıcıllığına baxanda təxmin etmək olar ki, nəyə görə belə edilib. İctimai sektoru tamamən çökdürüblər. Məqsədləri odur ki, həbsdəkiləri bu qaydada buraxmaqla da ruh yüksəkliyi yaranmasın, bir daha ayağa durmasınlar məntiqi ilə hərəkət edirlər. Əvvəl bizdən Bəxtiyarı buraxdılar, o, özü-özünü tamamən çıxdaş elədi. Şahini elə vaxt buraxdılar ki, atası dünyasını dəyişmişdi, öz-özünə ayağa durması qeyri-mümkün idi. Ardınca bizi buraxdılar və bununla da mesaj verdilər ki, içəridə də adamlar qalıb, onları da nəzərə almaq lazımdır. Elə bir vəziyyət yaradırlar ki, çıxan adamlarda böyük ruh yüksəkliyi qalmasın. Ya da Üzeyir demişkən, püşkatma prosesi keçirilib. İnanırıq ki, mart ayında da növbəti fərman veriləcək və digər dostlarımız da azadlığa çıxacaq. Çünki müraciət edəni azadlığa buraxırlar.

**"Hətta ilk ağlımıza gələn o oldu ki, əfv qərarını püşkatma yolu ilə ediblər"**

***- NİDA-çılara həbsdən sonra vurulan ən böyük zərbə kimi üzvünüz Bəxtiyar Quliyevin azadlığa çıxması ilə verdiyi müsahibə, ardınca həbsdə sizin sıralarınıza üzv olmuş Elsəvər Mürsəllinin davranışları, bəyanatları hallanır. Bu şəxslərin addımları sizə necə təsir etdi? Gözləyirdinizmi, içəridə ikən onlarda o "potensialı" görürdünüzmü?***

*Z.Qurbanlı:*

- Elsevər barədə bir cümlə deyim, sonradan onun üzərinə qayıtmayacam. Məncə, o, məqsədli şəkildə həbsdə bizim sıralarımıza yönləndirilmişdi ki, sonradan belə hərəkət etsin. O, NİDA-dan sui-istifadə edilmək üçün göndərilmişdi. Bəxtiyara gəlincə, ondan tam gözləməzdik ki, belə edəcək. Elə olsa, zatən onunla birgə olmazdıq. Amma sırf Bəxtiyarın etməsi dəhşətli dərəcədə təəccübləndirmədi. Qalan 6 nəfərin etməsi məni dəfələrlə artıq təəccübləndirərdi.

***- Niyə?***

*Z.Qurbanlı:*

- Bəxtiyar şəxsən mənim inamımı o qədər qazanmamışdı. İlk MTN-in təcridxanasında özünü aparmasına görə...



***- Rəşad Həsənovun üzünə durmasını nəzərdə tutursuz?***

Z.Qurbanlı:

-Bəli. Orda Məmmədə də təklif etmişdilər ki, üzə dursun. Orda Məmmədin əllərini bağlayıb, 30-40 dəqiqə fasiləsiz döymüşdülər. Zorlamaya qədər çox şeylə hədələmişdilər. Amma o, Rəşadın üzünə durmamışdı. Məmməd indiyə qədər də televiziyada çıxışının verilməsinə görə özünü bağışlamır. Amma inanmıram ki, Bəxtiyar vicdan əzabı çəkib. Çünki o hərəkətlərini sonradan da davam etmişdi. Yazdığı müraciət bir tərəfə, çıxandan sonrakı müsahibələri, hərəkətləri hər şeyi göstərir. Şəxsən mənim üçün o bağışlanmaz adamdır.

**"Hökumət bu ictimai sektoru necə çökdürübsə, insanlar məhbuslara məktub yazmağa ərinirlər"**



*Ü.Məmmədli:*

- Mən həyatda insanları olduğu kimi qəbul edirəm. Biz Bəxtiyarın hərəkətini eşidəndə ilk anda çox əsəbiləşdik. İndi o hirs soyuyub. Məhkəmə vaxtı müəyyən müşahidələrimdən bəlli idi ki, bu olacaq. Amma necə olacaq, bunu bilmirdim. Bəlkə də içəridə müəyyən əlaqələrimiz olsaydı, təsir altına düşməzdi, nəyəsə ümidi qalardı. Təcridxanada tək qalıb, yaşı azdır. Məmməddən bir yaş balacadır. Bu bir prosesdir. İnsanlar var qoşulurlar, müəyyən mərhələyə qədər gedirlər, sonra dayanırlar. Amma xalq kimin kim olduğunu bilir. Televiziyadan baxanda da bilirlər ki, onu məcbur ediblər, o da danışıb. Əks effekt verir etdikləri.

***- Üzeyir bəy, səhv etmirəmsə, həbsdən çıxandan sonra Bəxtiyarla görüşmüsünüz. Nə danışdınız, olanlarla bağlı nələr dedi?***

*Ü.Məmmədli:*

- Planlaşdırılmamış görüş idi, qəfil baş tutdu. İnsanlıq naminə görüşdük. Dedim ki, "get, həyatını yaşa. Gərək belə olmayaydı, amma oldu, bundan sonra da heç nəyi dəyişmək olmaz. Bizlə də ünsiyyət axtarma".

***- Kənardan hər şey başqa görünsə də, türmə həyatının öz özəllikləri var. Bayırdan gələn xəbərlər, məktublar, yazılar... Bir siyasi məhbusa, sizin kimi gənclərə sınmamaq, ayaqda qala bilmək üçün nələr kömək edirdi?***

*Ü.Məmmədli:*

- Biz həbsə hazır idik. Və bütün bunları da kimsə bizə sonradan dəstək versin deyə etməmişik. Məktublar, dəstək insanın əhvalına bir müddət xoş təsir göstərir. Amma böyük mənada götürəndə şəxsən mənim üçün onlar həlledici rol oynamırdı. Çıxandan sonra da çoxları yaxınlaşır ki, bağışla, sənə məktub yazmadım-filan. Deyirəm ki, mən heç gözləmirdim də.

*Z.Qurbanlı:*

- Üzeyirin dedikləri ilə razıyam. Amma məktubun göndərilməsi xoş təsir edir. Məhbusun psixoloji cəhətdən ayaqda dayanması üçün belə şeylər lazımdır. İndi məktublar getmir təəssüf ki. Məncə hökumət kimisə siyasi məhbusa "sizi dəstəkləyirəm" məktubu yazdığı üçün həbs etməz. Amma yazmırlar, yollamırlar. Hökumət bu ictimai sektoru necə çökdürübsə, insanlar məktub yazmağa ərinirlər. Əsas odu içəridəkilərə çatdırsınlar ki, onları düşünürük. Mən özümüzü nəzərdə tutmuram. İçəridə 90-a yaxın siyasi məhbus var. Niyə onlara yazmırsınız? O adam içəridə, dar bir hücrədə oturub düşünür. Yazacağınız bir kəlmə söz ona böyük dəstək verə bilər.

***- Bundan sonrakı həyatınızla bağlı planlarınızı qurmusunuzmu?***

*Ü.Məmmədli:*

- Plan qurmağa içəridən başlamışıq. Bizim üçün iş imkanları çox çətindir. Bizə iş verəni zərbə altında qoyarıq. Şansımızı yoxlamamışıq hələ, çünki sənədlərimizi almamışıq. Amma təhsilimi xaricdə davam etdirmək istəyirəm. Hələliksə dostlar içəridədir, bütün bunlar barədə onlar azadlığa çıxandan sonra danışmaq olar.

*Z.Qurbanlı:*

- İctimai fəaliyyət olaraq NİDA-dayıq. Şəxsi həyatda isə yenə də uşaqların azadlığa çıxmasını gözləyirəm ki, toy olsun. İş mənasında isə inanmıram ki, kimsə iş versin bizə. Gizlətmək də mümkün deyil. (gülür) Əmək kitabçasında bir boşluq var. Digər tərəfdən mediada da barəmizdə çox yazılıb. Amma magistr təhsilimi xaricdə davam etdirməyi istəyərəm.

***- Hər ikinizin dilindən "xarici ölkədə təhsil" sözlərini eşitdiyimə görə bu sualı verməliyəm: mühacirət etməyi düşünürsünüz?***

*Z.Qurbanlı:*

- Xeyr. Mən ancaq bu ölkədə yaşaya bilərəm. Xaricdə müvəqqəti qala bilərəm.

*Ü.Məmmədli:*

- Xeyr. Bunu təhsilimizə və şəxsi həyatımıza, şəxsi inkişafımıza vaxt ayırmaq üçün bir qədər fasilə kimi dəyərləndirmək lazımdı. Hər ikimiz hüquqşünasıq və təhsilimiz BDU-nun bakalavrıdır, bunu inkişaf etdirməliyik.

***- Zaur bəy, həbsdə olanda sizin yolunuzu gözləyən bir nişanlınız da vardı. Məktublaşmalar, 8 il iş alandan sonra onun verdiyi təpki... Bunlar da çox maraqlıdır. Sizdən bir də bunun hekayəsini eşitmək istəyərdim.***

**"Nişanlım dedi, 8 yox, 18 il də versələr, mən gözləyəcəm"**

*Z.Qurbanlı:*

- O qədər iş veriləndən sonra təbii ki, nişanlımın ailəsində də narahatçılıq vardı. Deyirdilər ki, 30 yaşa qədər gözləmək olmaz. Amma adam sadiq oldu. Dedi ki, 8 yox, 18 il də versələr, mən gözləyəcəm. 200-300 vərəq məktubumuz var. Hətta mən ona demişəm ki, məni gözləməsən, sənə hörmətim azalmaz, anlayaram. O da cavabında "mən səni sənə görə yox, özümə görə gözləyirəm" deyib.

***- Üzeyir, sizin yolunuzu gözləyən olubmu?***

- (Gülür) Olub və var. Amma bu barədə danışmağı çox sevmirəm.

*Z.Qurbanlı:*

- Və maraqlıdır ki, hər ikimizin münasibətimiz türmədə olanda başlayıb. Düzdü, mən Güneli (nişanlısı) əvvəldən də tanıyırdım, amma türmədə sevgili olmuşuq, sonra ailələr arasında get-gəl o vaxt başlayıb.

**Qeyd:** *Müsahibənin geniş versiyası, eyni zamanda videomusahibə ilə musavat.com saytından tanış ola bilərsiniz.*

❑ **Sevinc TELMANQIZI**



# Elementar mazoxizm

**Zamin HACI**
zaminhaci@gmail.com

**Keçən ilin axırında Naxçıvandan bir xəbər gəlmişdi, deyirdilər orda Vasif xanın göstərişi ilə uzun saçlı oğlanların saçını qırxırlar, bu məqsədlə Culfa Sərhəd Qoşunları, Naxçıvan Ali Məclisi, Ordubad icra hakimiyyəti, YAP Nehrəm şöbəsi və sairə əlaqədar qurumlar da prosesə cəlb edilmişdir. Əməlin maraqlı da bir səbəbi varmış: Naxçıvanda silsilə oğurluq olubmuş, polisin əlindəki fotorobota görə oğru uzunsaçlı bir gənc imiş, indi uzun saçı olan oğlanları yığırlar idarəyə, bir-iki şapalaq vururlar, əgər oğurluğu boynuna qoya bilməsələr saçını qırxıb buraxırlar. Profilaktika baxımından yaxşı tədbir idi - bütün uzun saçlıları qırxandan sonra oğru tək qalıb ilişəcəkdi.**

Ancaq o zaman Naxçıvan polis idarəsi jurnalistin bu haqda sualına daha ilginc (türkün sözü) cavab vermişdi: "Bu, yalan sözdür. Naxçıvanda il ərzində ümumiyyətlə oğurluq hadisəsi qeydə alınmayıb". Deməli, Naxçıvanda kommunizm artıq qurulub, heç bir cinayət olmurdu.

İndi mənim sözümün canı nədir? Üstündən xeyli vaxt keçib, lakin Naxçıvandakı saç qırxımının Bakıda tətbiqi yubanır! Bu, dözülməz haldır, hətta yağlı yeməklərin təbliğindən də pisdir! Axı biz öyrəşmişik, Naxçıvan bir növ laboratoriyadır, orda sınaqdan çıxarılan dövlət idarəçiliyi üsulları sonradan mütləq "böyük torpaqda" tətbiq olunur. Mən isə dünən Bakı şəhərində xeyli uzun saçlı oğlanlar görmüşəm. Bəs dövlətçilik hara baxır? Arif bəy demişkən, "hesab edirəm" Həsən Şirinovu işdən çıxartmaq lazımdır.

Bu arada hörmətli vəkil Osman Kazımovdan iqtisadiyyatımızda dirçəlişə səbəb ola biləcək təklif gəlib, onu diqqətinizə çatdırım. Çox aktualdır, çünki prezident də NK ilə iclasda dedi ki, gərək biz israfçılıqdan qaçaq, dövlət əmlakı səmərəli istifadə olunsun.

Osman bəy yazır: "Azərbaycanda iqtisadi böhrandan yayınmaq, dövlət büdcəsini kəsirdən qorumaq üçün səmərələşdirici təklif vermək qərarına gəldim. Məncə məhkəmə proseslərində dövlət ittihamını müdafiə edən prokurorlar ixtisara salınsın, onların əyləşdiyi kətilin üstünə "şikayət təmin edilməsin" sözləri yazılmış lövhə vurulsun. Bu lövhə prokurorluğun mövqeyini bildirəcək. Bu sözlərdən başqa sözlər bilmirlər. Bununla bağlı Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinə dəyişiklik edilsin. Beləliklə, ölkədə 100 ədəd belə kətil təşkil edilərsə, təxminən 100 prokuror ixtisara düşər. Bu da ayda 2000 manat olmaqla ildə 2 milyon 400 min manat edir ki, bu pula da xeyli yetim saxlamaq olar. Hesab edirəm bu kəşfim yüksək dəyərləndiriləcək, orden, medalla təltif olunacağam. Çünki uca dövlətimizi düşünərək bu kəşfi etmişəm". Sitatın sonu.

Görün necə təvazökar insandır, kəşfinə görə orden istəyir! Hətta YAP-da belə təvazökar insanlar azdır.

Ancaq Osman bəyin qənaət edilən pulları yetimlərə xərcləmək təklifi, məncə, populizmdir, heç lazım da deyil. Yetim saxlamaq onun yetimliyini əlindən alır, bəs ölkədə yetim kim olacaq? Müqayisə üçün, iqtisadiyyatımızın davamlı inkişafı üçün həmişə müəyyən sayda yetimlərə ehtiyac var. Örnək üçün, 20 ildir bizdə işsizlərin sayı 5500 nəfərdir, qətiyyən dəyişilmir. Yəqin bu qədər də yetim-yesir olar. Hər halda, yetimlər onsuz qəzet oxumur, bizə nə düşüb onların problemlərini düşünək? "Hər kəs yetim olubsa, Günah onun özündədir" - görkəmli şairimiz belə yazıb.

Sonda bir aktual məsələyə də münasibət bildirim. Neftin qiyməti düşüb, ancaq yapistlər benzini bahalaşdırdılar. İndi hər kəs bu acaib qərar üzərində baş sındırır, nəsə məntiq axtarırlar. Halbuki səbəb çox sadədir: rejim neft pulları ilə bəslənib, saxlanır, neftin ucuzlaşması sayəsində yaranan kəsiri necə doldursunlar? Bizim hesabımıza. Ayrı yol yoxdur. Öz ciblərindən kəsəsi deyildilər ki? O benzinin hər litrinə verdiyiniz 2 qəpik sonra sizin başınıza dəyəcək zopanın puludur. O iki qəpik seçki saxtalaşdıran bir sürü kaftar büdcə zəhmətkeşinə yal vermək üçün yığılır. Şerlok Holms demişkən, "Bu ki elementardır, Vatson".

Psixoloji ədəbiyyatda özünün əzilməsini maliyyələşdirmənin elmi adı da var. Mazoxizm adlanır.

# "Azərbaycan" qəzeti Obamanı ikiüzlü adlandırdı

## Sülhəddin Əkbər münasibətlərin korlanmasının üç mühüm səbəbini açıqladı

**Rəsmi dövlət qəzeti olan "Azərbaycan"ın 13 yanvar tarixli sayında ABŞ prezidenti Barak Obamanı sərt tənqid edən böyük məqalə dərc edilib. "Barak Obamanın ikiüzlülüyü" adlı məqalənin ümumi məzmunu bundan ibarətdir ki, o, hakimiyyətə gəldikdən bir qədər sonra ABŞ-ın xarici siyasəti, o cümlədən Azərbaycana yönəlik siyasəti ikiüzlü siyasət halını alıb. Dünyanın müxtəlif bölgələrində baş verən inqilablar, çevrilişlər, terror hadisələri məhz Obamanın siyasətinin nəticəsi kimi təqdim edilir.**



**Əvvəlki ABŞ prezidentlərindən fərqli olaraq Obamanın dövründə ABŞ-ın Azərbaycanla bağlı siyasətinin kəskin qeyri-ardıcıllığı və anlaşılmazlığı ilə seçildiyi vurğulanır:** "Hər halda, həm böyük Corc Buş, həm Bill Klinton, həm də kiçik Corc Buşun dövründə bu ölkədə kimin kim olduğu, kimin nəyə görə cavabdehlik daşıdığı bəlli idi. Söz deyilirdi, vəd verilirdi və heç olmasa, onların icrasına həqiqi cəhdlər göstərilirdi. Ancaq Obama hakimiyyətə gəldikdən sonra ABŞ-ın Azərbaycanla bağlı prioritetləri "səhrada ilğım"ı xatırlatmağa başladı. Bir tərəfdən ABŞ dövlət başçısı Azərbaycanla əməkdaşlığa böyük önəm verdiklərini, İlham Əliyev hakimiyyəti ilə işləməyə davam edəcəklərini bəyan edir, digər tərəfdən də Azərbaycana dəstək istiqamətində heç bir addım atılmır. Bütün bunlar azmış kimi, ABŞ-ın bəzi dairələri Azərbaycanda müxtəlif hakimiyyət dəyişikliyi ssenariləri həyata keçirməyə can atdılar. ABŞ mediası və QHT-ləri Azərbaycana qarşı "qara piar" kampaniyasını günü-gündən şiddətləndirir. Bu ikiüzlülük və riyakarlığın səbəbini anlamaq mümkün deyildir. Belə halda görünən odur ki, Obama administrasiyası ardıcıl ifşalardan, özünə qarşı dünyada inamın, etibarın əsaslı şəkildə sarsılmasından sonra ayrı-ayrı dövlətlərlə münasibətlərini necə davam etdirəcəyini hələ də müəyyənləşdirə bilməyib.

Ancaq cənab Obamanın şəxsi inciklik kasasında özünə layiqli yer tutmuş bir nüansı da diqqətdən qaçırmayaq. Məlumdur ki, 2009-cu ildə Türkiyə ilə Ermənistan arasında sərhədlərin açılması layihəsi həyata keçirilən vaxt ABŞ prezidenti Ankaraya səfərə gəlmişdi. O da bəllidir ki, həm dövlət katibi xanım H.Klinton, həm də cənab Obamanın özü Azərbaycan Prezidenti İlham Əliyevlə əlaqə saxlayaraq onu Türkiyəyə dəvət etmişdilər. Bundan məqsəd Azərbaycan dövlət başçısını sərhədlərin açılmasına razı salmaq olmuşdu. İlham Əliyev Türkiyəyə getməkdən imtina etməklə həm Türkiyəni anti-Azərbaycan siyasətinə sürükləmək, onun heysiyyatına toxunmaq cəhdlərindən sığortaladı, həm də cəsarətli və uzaqgörən dövlət başçısı kimi Azərbaycanın maraqlarını hər şeydən uca tutduğunu nümayiş etdirdi. Görünür, Barak Obama hələ də bu günə kimi Azərbaycan prezidentinə bunu bağışlaya bilmir".

Məqalə ortaya sual çıxarır ki, ABŞ kimi nəhəng dövlətin xarici siyasətini təkcə prezidentmi müəyyənləşdirir?

**Azərbaycan-Atlantik Əməkdaşlıq Asossiasiyasının rəhbəri Sülhəddin Əkbər bildirdi ki, ABŞ-ın xarici siyasətinin formalaşmasında prezident administrasiyası ilə bərabər Konqres-həm onun Aşağı Nümayəndələr Palatası, həm Senat xüsusi rol oynayır. Eyni zamanda bir sıra institutlar, lobbilər xarici siyasətin formalaşmasına əhəmiyyətli təsir edir. İlk növbədə enerji və silah lobbisinin adını çəkmək olar:** "Həmçinin bir sıra beyin mərkəzlərin, ictimai rəyin də təsiri var. Bütün bunların hamısı sonucda ABŞ siyasətini formalaşdırır. Amerikanın bir dövlət siyasəti var. Hansı ki, prezidentin dəyişməsindən asılı olmayaraq aparılan siyasət var. Bu siyasəti əsasən Milli Təhlükəsizlik Şurası davam etdirir. Burada Konqresin, Pentaqonun, Dövlət Departamentinin də təsiri var. Eyni zamanda hakimiyyət təbii ki, dəyişdikcə bu siyasətə müəyyən korrektələr olur".

**S.Əkbərin sözlərinə görə, Amerika siyasətinin formalaşma prosesi özü çox mürəkkəbdir və bu siyasətin formalaşmasına təsir edən qütblər çoxdur. Amma heç şübhəsiz ki, sonucda yenə də prezidentin də böyük təsiri var:** "Amma müəyyən məsələlər var ki, o, və o siyasətin öncəlikləri var. Bu baxımdan Amerikanın həyati marağı olan və vacib marağı olan məsələlərdə hökumət də ciddi korrektələr edə bilmir. Dünyada demokratiya və insan haqları da ABŞ-ın dövlət siyasətinin istiqamətlərindən biridir. Bu siyasətin yüz illik bir tarixi var. Zaman-zaman dünyada qlobal hadisələr baş verdikdən sonra bu demokratiya xətti daha da güclənir. Mən illər öncədən deyirdim ki, dünyada demokratiyanın inkişafı artıq strateji xarakter alıb. Yəni yalnız siyasi, mənəvi bir amil deyil. Çünki Amerika dövlət siyasətinin inkişafı eyni zamanda demokratiyanın inkişafı ilə bağlıdır. Demokratiya məkanı inkişaf etdikcə, sülh və təhlükəsizlik məkanı da inkişaf edir, Amerikanın dominant olduğu institutların sərhədləri də genişlənir, eyni zamanda dünya qloballaşır".

**S.Əkbər onu da dedi ki, Barak Obamanın şəxsinə dövlət qəzetində o cür məqalə başlığının verilməsinin özü onu deməyə əsas verir ki, Azərbaycan hakimiyyəti və ya hakimiyyətdəki müəyyən dairələr biləkdən qırmızı xətti keçirlər:** "Burda siyasi maraqlardan biri də ondan ibarətdir ki, İlham Əliyevin və onun yaxın çevrəsinin ABŞ-la münasibətləri o həddə pozulsun ki, artıq Rusiyadan başqa yaxınlaşmalı qütb qalmasın".

**"ABŞ-la Azərbaycan hakimiyyəti arasında nə verir" sualına S.Əkbərin cavab belə oldu:** "ABŞ, Avropa Birliyi, NATO bir tərəfdən, digər tərəfdən, Rusiya və onun himayəsində olan rejimlərin qarşıdurması səbəblərdən biridir. Qərbin demokratiya coğrafiyasını genişləndirmək siyasəti artıq geopolitik, geostrateji, geokültürəl bir məsələdir. Bu da geopolitik səviyyədə qarşıdurmaya gətirib çıxarıb. Çünki demokratiyanın genişlənməsi məsələsi artıq postsovet məkanına daxil olub. Bu da Rusiya başda olmaqla, bu məkanın avtoritar rejimlərini ciddi narahat edir. Yəni problemin kökündə duran səbəblərdən biri budur. Avtoritar rejimlər ABŞ-la Avropa Birliyinin regional və qlobal siyasətinin qarşısında əngələ çevrilib.

İkinci səbəb, Ukrayna böhranından sonra Azərbaycan hökumətinin Rusiyaya meyllənməyə başlamasıdır. Azərbaycan iqtidarı yaralı "rus ayısı"ndan ehtiyat edir. Üçüncü səbəb, dünya bazarında neftin qiymətinin məqsədli şəkildə aşağı salınmasıdır. Bunun da arxasında ABŞ və onun Yaxın Şərqdəki müttəfiqləri durur. ABŞ bilir ki, avtoritar rejimlərin əsas gəlir mənbəyi enerjidaşıyıcılarıdır. Enerjidaşıyıcılarının qiyməti artdıqca Rusiya başda olmaqla, bütün avtoritar rejimlər daha da aqressivləşir. Ona görə də qərara gəlindi ki, dünya bazarında neftin qiyməti endirilməlidir. Neftin qiymətinin endirilməsi və Rusiyaya tətbiq olunan sanksiyalar Azərbaycana da təsir edir. Hakimiyyətin ABŞ-la münasibətlərinə bu amil də təsir edib. Üçüncü səbəb Azərbaycan hakim elitasında Rusiyanın güclü mövqelərə sahib olmasıdır".

**Həmsöhbətimiz başqa digər səbəblərin də olduğundan danışdı:** "Bunlar haqda danışmaq hələ bir qədər erkən olsa da artıq mənə elə gəlir ki, Azərbaycan hakimiyyətində Azərbaycan cəmiyyətində olmayan bir sıra informasiyalar da var. Bu da mənə elə gəlir ABŞ-ın, Avropa Birliyinin, NATO-nun postsovet məkanı, o cümlədən Azərbaycan hakimiyyəti ilə bağlı niyyətləri, planları ilə bağlıdır. Bu da yaxın gələcəkdə yəqin ki, daha aydın şəkildə görünəcək. 18 fevralda Vaşinqtonda keçiriləcək terrorla mübarizə sammitində də bu məsələlərə müəyyən aydınlıq gələcək.

Əsas səbəblərdən biri də Azərbaycan hakimiyyətinin Qərbin maraqlarını təmin etməsi qarşılığında Qərbin hakimiyyətin gözləntilərinə cavab verməməsidir. ABŞ-ın Azərbaycanda enerji, təhlükəsizlik və Azərbaycan marağı var. Azərbaycan iki məsələdə Qərbin maraqlarını əsasən ödəyir. Demokratiya məsələsində ABŞ israr edəndə bu, artıq rəsmi Bakını qıcıqlandırır".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 8 (6036) 14 yanvar 2015

## Azərbaycanla ABŞ arasında gərginlik açıq müstəviyə keçdi





# Vaşinqtonda kritik dinləmələr: Bakı Obamanı hədəfə aldı

(NED) tərəfindən təşkil olunan tədbirdə hakimiyyət sərt tənqid edildi; dövlət katibinin rəsmi nümayəndəsi Tomas Melia: "Biz AzadlıqRadiosunu və başqa təşkilatları var gücümüzlə müdafiə edəcəyik"; Bakıdakı rəsmi dövlət qəzeti Obamanı ikiüzlü adlandırdı

**Vaşinqtonda Azərbaycanla bağlı 12 yanvarda keçirilən dinləmələr gözlənildiyindən də gərgin keçib. "Azərbaycanda müstəqil səslərin susdurulması" adlı müzakirələr ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondu (NED) tərəfindən təşkil olunub.**

Tədbirin aparıcısı Demokratiyanın Araşdırılması üzrə Beynəlxalq Forumun icraçı direktoru Kristofer Uolker olub. O, müzakirələri açıq elan edərək bildirib ki, Azərbaycanda analoqu olmayan səviyyədə repressiyalar gedir. "Bu ölkədə azad söz basqı altındadır, fərqli düşüncə boğulur. Bunun nəticəsi olaraq, çoxsaylı insanlar həbsxanadadır", deyən Uolker konkret olaraq, Leyla Yunusun, Xədicə İsmayılın adlarını çəkib.

**"Respublikaçı Alternativ" (REAL) Hərəkatının İdarə Heyətinin üzvü, Bakı Dövlət Universitetinin professoru Altay Göyüşovsa** deyib ki, Avropa Şurasına qoşulmamışdan əvvəl Azərbaycan daha demokratik ölkə idi. Onun fikrincə, indi Avropa Şurasına rəhbərlik etməsi Azərbaycana demokratiyanı daha da inkişaf etdirmək üçün bir fürsət olmalı idi. Amma bunun əvəzində həmin dövrdən müstəqil səsləri tamamilə boğmaq, müxalif fikir üçün meydanı tamamilə daraldıb aradan qaldırmaq üçün istifadə edildi: "Putinin Krımı işğal etməsindən sonra Azərbaycanda repressiyalar görünməmiş həddə çatdı. Hökumət tənqidi səsləri tamamilə sıradan çıxarmaq siyasəti yürüdür. Bütün bunlar Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi dövrünə təsadüf etdi. Ölkəmiz Avropa Şurasına qoşulanda ümid edirdik ki, bizdə də vətəndaş hüquq və azadlıqları təmin olunacaq. Amma Avropa Şurasına daxil olmamışdan əvvəl vəziyyət indikindən yaxşı idi".

Altay Göyüşov deyib ki, ölkədə bütün telekanallar hökumətin nəzarətindədir, hökumət təkcə azad mətbuat təmsilçiləri deyil, facebook fəallarını da həbs edir.

**AzadlıqRadiosunun Azərbaycan xidmətinin rəhbəri Kənan Kazımoğlu deyib ki, dekabrın 26-da AzadlıqRadiosunun Bakı ofisinə qeyri-qanuni hücum olub:** "6 il əvvəl də eyni tarixdə FM dalğasında yayımımızı dayandırmışdılar. Bu dəfə həmin gün mənim üçün daha ağır oldu. Radionun avadanlıqlarını, möhürünü, sənədlərini apardılar. Radionun bank hesabına həbs qoyulub. Bu cür basqı Azərbaycanın beynəlxalq öhdəliklərinə ziddir. Əməkdaşlarımızı prokurorluğa çağırdılar, onları sorğu-suala tutdular. Hətta əməkdaşlarımızdan birini gecə paltarında, ayaqqabısız sürüyərək apardılar. Digər əməkdaşımız Xədicə İsmayılova həbsdədir. Xədicənin həbsindən iki gün əvvəl Prezident Administrasiyasının rəhbəri məqalə yazmışdı və onun yazdıqları bir işarə idi. Biz əminik ki, hüququmuzu digər məhkəmələrdə müdafiə edə bilərik, amma Azərbaycanda yox. Çünki Azərbaycanda azad məhkəmə yoxdur. Biz bütün mümkün vasitələrlə AzadlıqRadiosunun fəaliyyətini davam etdirəcəyik".

**K.Kazımoğlu onu da qeyd edib ki, Azərbaycan hökuməti beynəlxalq təşkilatların Bakıdakı nümayəndəliklərini ölkədən çıxarıb:** "Azərbaycanda Rusiyanın beş informasiya agentliyinin bürosu var. İranın İRNA agentliyinin bürosu var. ABŞ-ın bir radiosu vardı, onu da bağladılar".

**ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasında baş analitik olan Ketrin Kozman** bildirib ki, Azərbaycan yeganə sovet ölkəsidir ki, burada əhalinin 65 faizi şiə, 35 faizi sünnidir. Hazırda həbsdə olan tarixçi alim Arif Yunusun "Azərbaycanda İslam" adlı kitabını nümayiş etdirən Kozman onu bu sahədə yaxşı bir resurs kimi qiymətləndirib. O həmçinin bildirdi ki, Azərbaycanda İslam Partiyasının 5 funksioneri həbsdədir.

**Massaçusets Universitetinin tarix professoru Odri Alştat çıxışında deyib ki, Azərbaycan hökuməti inqilab baş verən ölkələrdən özünəməxsus nəticələr çıxararaq, ATƏT-in Bakı ofisinin statusunu məhdudlaşdırıb, beynəlxalq təşkilatları ölkədən çıxarıb:** "Bu həbslər dalğası ona görə həyata keçirilir ki, Azərbaycan dövlətçiliyi, müstəqilliyi təhlükə altındadır, yoxsa hakimiyyət qurduğu rejimi qorumaq üçün bu addımı atır? Nəticə belə çıxır ki, hakimiyyətlərini qorumaq üçün repressiyalara əl atırlar. 2012-ci ildə Bakıda "Eurovision" keçirilən vaxt müxalifətçilər çox fəal idi, onlar ölkədəki problemləri çatdırırdı. Qarşıdan Yay Oyunları gəlir. Azərbaycan hökuməti repressiyaları ona görə gücləndirib ki, bu dəfə ölkədəki problemləri dilə gətirənlər olmasın, həmin səsləri susdursun".

**ABŞ dövlət katibinin demokratiya, insan hüquqları üzrə köməkçisinin müavini Tomas Melia vurğulayıb ki, Azərbaycanda baş verənləri çox yaxından izləyirlər:** "Dövlət katibi Con Kerri İlham Əliyevə zəng edərək, Azərbaycanda ABŞ təşkilatlarına, eyni zamanda yerli müxalifətə basqılardan narahatlığını bildirib. ABŞ Azərbaycanın suverenliyini və müstəqilliyini tanıyır və bunu qoruyub saxlamağa kömək edir. Müstəqil, demokratik Azərbaycan ABŞ-ın və dünyanın yaxşı müttəfiqi ola bilər. Söz azadlığı, sərbəst toplaşma azadlığı vacibdir və olmalıdır. Biz yüksək səviyyədə hakimiyyətlə əlaqədəyik və çalışırıq ki, yol tapaq və davam edək. Yaxın həftələrdə Senat da yeni səfiri təsdiqləyəcək və o, vəzifəsinin icrasına başlayacaq. Bu da bizə yeni imkanlar yaradacaq. Biz AzadlıqRadiosunu və başqa təşkilatları var gücümüzlə müdafiə edəcəyik".

**Azpolitika.az xəbər verir ki, ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondunun proqram direktoru Miriam Lanskoy Azərbaycandakı vəziyyətdən danışarkən həttə ağlayıb:** "Çox düşünürəm ki, niyə bu hadisələr baş verir? Azərbaycanda son 10 ildə hər şey pisləşməyə doğru gedib. 90-cı illərə baxsaq, Azərbaycan da Gürcüstan və Ermənistanla paralel gedirdi. İndi isə Özbəkistanla paralel gedir. Azərbaycanın ən gözəl jurnalistləri, ən gözəl alimləri, ən gözəl aktivistləri həbsxanaya atılır. İntiqam Əliyev avqustda həbs olunanda demişdi ki, mən də yaxşı insanlar olan yerə gedirəm. Niyə yaxşı adamlar həbsə atılır? Günahsız insanlar əzilir..?" Bu yerdə Miriam Lanskoy göz yaşlarını saxlaya bilməyib.

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu dinləmələr haqqında bir neçə məqamı xüsusi vurğulayıb:** "Birinci diqqət çəkən məqam ondan ibarət idi ki, mövzu kifayət qədər tənqidi çalarlı bir mövzu idi. Yəni indiyə qədərki dinləmələrdə bu cür başlıqlı mövzu müzakirəyə çıxarılmamışdı. İkinci məqam ondan ibarət idi ki, faktiki olaraq Azərbaycan hakimiyyətinin mövqelərini müdafiə edəcək hansısa - belələri də az deyil - muzdlu amerikalı siyasi ekspertlər dinləmələrə dəvət olunmamışdı. Nəhayət, diqqət çəkən digər məqam da bu idi ki, dinləmələrdə Azərbaycan hakimiyyəti haqqında qeydlərin, iradların əksəriyyəti tənqidi xarakterli idi. Bu da anlaşılandır, çünki biz artıq buna qədər də dəfələrlə eşitmişik ki,



Azərbaycan hakimiyyətinin insan haqlarına, söz və mətbuat azadlığına, vətəndaş cəmiyyətinə münasibəti ABŞ-ın müxtəlif səviyyələrdə rəsmiləri, hətta prezident Obama tərəfindən tənqid olunur".

**Ə.Oruclu dedi ki, dinləmələrdə iştirak edən Tomas Melia kifayət qədər neytral çıxış edib və Azərbaycanla strateji tərəfdaşlığın önəmini irəli çəkib:** "Bu, bir daha göstərdi ki, bütün tənqidi qeydlərə, iradlara baxmayaraq, ABŞ Azərbaycanla strateji müttəfiqlikdə maraqlıdır. Bununla da Azərbaycanda rəsmi təbliğatın təqdim etdiyi kimi ki, guya bu tərəfdaşlığı pozmaqda ABŞ maraqlıdır, bunu darmadağın etdi. Yanvarın 13-də "Azərbaycan" qəzetində "Obamanın ikiüzlülüyü" başlıqlı yazı da göstərir ki, Azərbaycan-ABŞ münasibətlərinin pozulmasında, bunların inkişaf etməməsində, dağılmasında pozuculuq göstərən kimdir. Artıq hər şey aydındır". *(Bu barədə ayrıca yazını qəzetimizin 8-ci səhifəsində oxuya bilərsiz-red)*.

**Ə.Oruclu istisna etmir ki, iki ölkə arasındakı gərginlik növbəti fazaya keçə bilər:** "Bakının rəsmi qəzetinin bu cür reaksiyasından sonra mən istisna etmirəm ki, münasibətlər daha gərgin fazaya keçə bilər".

Rəsmi Bakı isə dinləmələrə soyuqqanlı yanaşır.

XİN-in mətbuat katibi Hikmət Hacıyev bildirdi ki, ABŞ rəsmisinin iştirakına baxmayaraq, dinləmələrin formatı qeyri-hökumət xarakteri daşıdığı üçün rəsmi Bakı buna şərh verməyəcək.

**Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc isə xatırlatdı ki, Amerikada dinləmələr praktikası keçmişdə də olub:** "Bu, dövlətin idarəçiliyin mühüm tərkib hissəsidir və siyasi elitasının çevrəsində qərarlaşmış beyin mərkəzləri, institutlar və analitik dairələrin hamısını, eyni zamanda maraq qruplarını bir araya gətirərək, xüsusilə də seçkilər dövründə belə dinləmələri biz yaxın tariximizdə görmüşük. Dinləmələrdə diqqətimi çəkən ilk növbədə ABŞ dövləti adına iştirak edən Tomas Melianın daha sistemli, ehtiyatlı leksikondan istifadə etməyə çalışması idi. Əslində burada dinləmələrin qabaran marağı Amerika pulları üzərində indiyə qədərki dövrdə fəaliyyət aparanların zərər çəkməsi idi. Yəni belə demək mümkündürsə, o vəsaitlər ki, QHT-lərə yönəldilirdi, həmçinin burada ayrı-ayrı institutlar fəaliyyət aparırdılar və məhz Azərbaycandan o layihələr yönləndirilirdi, o cümlədən AzadlıqRadiosu üçün ayrılmış vəsaitlər üzərində vasitəçilik edənlər var idi. Birdən-birə bu qədər böyük vəsaitə zərbə dəyib və Azərbaycanla işbirliyinin kəsilməsi fonunda həmin qüvvələrin real olaraq vəsaitləri dayanıb. Ona görə də dinləmələrdə bu maddi ağrı daha çox hiss olunurdu, nəinki siyasi mənafelər".

**Z.Oruc ikinci məqam olaraq qeyd etdi ki, vaxtilə bölgəyə cavabdehlik daşıyan insanların müxtəlif siyasi narazılıqlarını, şəxsi mövqelərini dövlət adına daha çox daşımaları idi:** "Məsələn, Devid Kramer dövlət katibinin köməkçisi olarkən Azərbaycanın hansısa layihələrdə iştirakı, neft və qaz məsələlərinə dair tələblərdə bulunub, ancaq bunlar reallaşmayıb. Həmin münasibət ondan sonrakı dövrdə davam edib və hazırkı kəskin narazı dilə çevrilib. Artıq o, dünən (dinləmələrdə - red.) səbr kasası və sairdən danışmağa başlamışdı. Əslində o, özünün hikkəsini Amerika dövlətinin adına yazmaqla məşğuldur". **Üçüncüsü məqamdan bəhs edərkən deputat son dövrlər regional və postsovet məkanda geopolitik dəyişikliklərin olduğuna diqqət çəkdi:** "Azərbaycan çox fəal şəkildə Qərbin proyektlərinə qatmağa çalışırlar. Bu isə avtomatik bizim məlum xarici siyasət kursundan imtinanı ehtiva edir. ABŞ-ın Azərbaycana qarşı son təsirlərində, təzyiqlərində radionun, bir ovuc QHT strukturlarının davasından daha çox, bu bürüncəyə örtülmüş geopolitik dava var. Azərbaycanın enerji layihələri Avropa ilə ortaqlığı özündə ehtiva edir. Ancaq bunu tam onların layihəsi kimi dəyərləndirmək olmaz. Ən azı Orta Asiyanın ehtiyatlarının işlənməsi üçün Azərbaycanı bu layihələrin forpostuna çevirmək istəyən Qərb onun şahidi olmadı, NABUCCO-nun üstündən xətt çəkildi. Bu isə həmin dairələri çox ağrıdır. Çünki bir neçə milyon dollar vəsait onun texniki-iqtisadi əsaslandırılmasına, lobbiçiliyinə və piarına xərclənmişdi. Azərbaycan isə Türkiyə ilə birgə öz layihəsini seçdi. Ona görə də bu dinləmələr orada narazıların nə səviyyədə yerləşdirilməsi ilə, ordakı leksionla bizə bir mesaj idisə də, daha artıq dərəcədə Amerika-Azərbaycan arasındakı münasibətlərin bir indikatoruna çevrildi. Həqiqətən də müxtəlif məsələlərə baxışlarda problemlər var. Amma mən ən sonda Azərbaycan dövləti adına hörmətli Əli Həsənovun açıqlamasını əsas götürmək istərdim. Orada vurğular dəqiq, yerində qoyulub ki, ölkəmizin rəsmi qurumları Amerika ilə münasibətlərin üzərinə xətt çəkmək, onu təftiş etmək, yaxud başqa bir dairələrə yönəlmək üçün bu əlaqələrdən imtina niyyətini güdmür. Ona görə də Amerikanın əlinə oynamaq istəyən, yaxud ABŞ-dan maaş aldığı üçün indi onun dayanmasından ağrı keçirənləri bir qırağa qoysaq, əminəm ki, Amerikanın siyasi elitası daha realist bir mövqe ilə problemlərin çözümü üçün real addımlar atmağa çalışacaq".

❑ **E.PAŞASOY**

# “Karikatura müharibəsi” - Qərbin yeni “Səlib yürüşü”?

## Paris olaylarının pərdəarxasındakı dirijorların məkrli niyyəti nədən qaynaqlanır? Baş verən proseslər Qərbin müsəlman dünyasını gözdən salmağa yönəlik hansısa qlobal strategiyasında həlqə təəssüratı yaradır...

**I Yazı**

**İslamofobiyanın Avropada yenidən güclənməsi ola bilsin, Qərbdəki bir çox qüvvələrin marağındadır, hansı qüvvələr ki, Rusiya ilə indiki siyasi-iqtisadi qarşıdurmadan tədricən aralanıb bütün konfliktləri sivilizasiyaların qarşıdurması məcrasına yönəltmək istəyərdilər.**

Parisdə “əl-Qaidə” adından bir-birinin ardınca törədilən terror aktları, o sırada jurnalistlərin güllələnməsi, insanların girov götürülməsi, polis əməkdaşları və dinc vətəndaşların öldürülməsi Azərbaycan da daxil, bütün ölkələrdə yekdillik və ədalətli etiraz reaksiyası doğurdu. Bu məsələdə şübhəsiz, planetin tərəqqipərvər və sağlam düşüncəli insanlarının hamısı həmrəydir. Bununla belə, bütün bu “quruluş verilmiş”, qərəzli şəkildə körüklənən olaylarda bir çox şeylər var ki, onlar sanki məqsədli surətdə islamofobiyanın hansısa yeni və daha qlobal miqyasda qızışdırılmasından ötrü müəyyən bir ssenarili motivin, dirijor çubuğunun və qabaqcadan yazılmış partituranın mövcudluğuna dəlalət edir.

***

Ona görə “yeni” yazıram ki, yaşananlar bu və ya başqa formada əvvəllər də olub. 10 il öncəki “karikatur müharibəsi”ni yada salmaq kifayətdir. Sözgəlişi, o zaman da, indi də hər şey Peyğəmbərin təhqirindən başlayıb. O zaman böyük qalmaqalın təhrikçisi Danimarka qəzeti “Jyllands-Posten” olmuşdu. 30 sentyabr 2005-ci ildə bu qəzet Məhəmməd Peyğəmbər haqda serial şəkildə iyrənc və aşağılayıcı satirik karikaturalar nəşr eləmişdi.

Hələ o vaxt hadisələrin xarakteri və onların sonrakı inkişafı belə bir şeyin xəbərçisi idi ki, “karikatura müharibəsi” - Qərbin (ABŞ-ın) müsəlman dünyasını gözdən salmağa və islamofobiyanı gücləndirməyə yönəlik hansısa qlobal strategiyasında həlqədir. Peyğəmbərin ünvanına təhqiramiz hücumların təhrikçi xarakteri və dirijorluğunu İslam dünyasının belə iyrənc rəsmlərlə dəfələrlə sınağa çəkilməsi faktı da təsdiqləyirdi.

Belə ki, məsələn, görəndə ki, Danimarka qəzeti tərəfindən ortaya atılmış sınaq “karikatur” şarı hissediləcək reaksiya doğurmadı, bu təxribatın pərdəarxası dirijorları dərhal milyard yarım insanın dini hisslərinin kütləvi “karikatur” bombardmanına başladılar: şəbədə xarakterli təsvirlər sanki vahid mərkəzin komandası ilə bəzi tanınmış Avropa nəşrləri tərəfindən təzədən nəşr edildi.

Reaksiya isə tam gözlənilən oldu: olduqca güclü narazılıq dalğası bütün İslam dünyasını bürüdü. Hardasa avropalı səfirlərə “qulaqburması” verməklə kifayətlənildi, hardasa Danimarka malları və təşkilatları boykot edildi, bir sıra ölkələrdə isə vəziyyət kütləvi mitinqlərə və Avropa humanitar təşkilatlarının missiya və səfirliklərinin dağıdılması ilə müşayiət olunan qarmaqarışıqlıqlara gətirdi. İlk qan da onda töküldü - Türkiyədə xristian keşiş qətlə yetirildi. Qəzəbli bəyanatlar və emosional etirazlar o vaxt bizdə - Azərbaycanda da özünü göstərmişdi.

Gəl ki, o zaman İslam dünyasında narazılıq dalğasının kəskin artmasına rəğmən, Qərb KİV-ləri üzrxahlıq etmək və ya iyrənc materiallar selini durdurmaq əvəzinə, söz azadlığı tezisi ilə möhtəkirlik edərək, “karikatur cəbhəsi”ndə hücumları genişləndirməkdə idilər. Bunun təzahürü idi ki, 2006-cı ildə milyard yarım müsəlmanın aşağılanması kimi təhlükəli oyuna Avropanın digər ölkələrinin onlarla qəzet və jurnalı qoşuldu və beləliklə də onlar qızışmaqda olan sivilizasiyalararası və dinlərarası qarşıdurmaya bir az da çox yağ tökdülər.





> **“Hantinqtonun doğrulan doktrinası fonunda Amerikanın vəzifəsi əhəmiyyətli dərəcədə sadələşirdi:** ABŞ ”İslamın düşmən mahiyyətini" konkret şəkildə təsdiqləyən hadisələr sırası (“Şər oxu”) qurmalı idi. Bu vəzifənin öhdəsindən Amerika sürətlə və uğurla gəldi..."





> **“Qərb təbliğatı dünya hadisələrinin 10 illik total manipulyasiyası hesablına yeni leksika və düşüncə matrisi formalaşdırdı. Çox tezliklə bir sıra təsəvvürlərin təzə sinonimləri yaradıldı: ”müsəlman terrorizmi", “təməlçilik”, “radikal islam”, “islam təhlükəsi” və s."**

O zaman karikatura mövzusuna Parisdəki son terror aktının qurbanı - fransız satirik jurnalı “Charlie Hebdo” da fəal şəkildə qoşuldu. 2006-cı ildə həmin nəşr Danimarka şər-şəbədəsini nəinki təkrar çap elədi, üstəlik, onu özünün Peyğəmbər barədə məxsusi təhqiramiz rəsmləri ilə “dolğunlaşdırdı”.

Hələ harasıdır, karikatura ilə kifayətlənməyən jurnal 2007-ci ildə qıcıqlandırıcı “İslamizmə qarşı manifest” adlı məqalə dərc elədi. Həmin “manifest”də İslam dini “totalitar tipli yeni qlobal təhlükə” kimi təqdim olunurdu və faşizmlə, nasizmlə, satalinizmlə bir sıraya qoyularaq dünya birliyi “bu hədəyə qarşı” mübarizəyə çağırılırdı.

2011-ci idlə “Charlie Hebdo” təzədən İslam peyğəmbərini aşağılayan rəsmlər dərc elədi. Həmin ildəcə naməlum şəxslər redaksiyanın ofisinə yandırıcı bomba atdılar. Nəticədə yanğın baş verdi və redaksiyanın praktik olaraq bütün avadanlığı məhv oldu. Lakin bu xəbərdarlığa baxmayaraq 2012-ci ildə jurnal yenidən Peyğəmbərin karikaturalarını dərc elədi. Terakta bir neçə gün qalmış isə redaksiya internet-satışa Məhəmməd Peyğəmbər haqda uşaq komiksləri (prikolları) buraxdı.

Az sonra beynəlxalq ictimaiyyəti dəhşətə salan və hamı tərəfindən qınanan məlum 7 yanvar hadisəsi - redaksiya heyəti ilə qanlı haqq-hesab çəkmə olayı baş verdi. Amma ayıldıcı “Stop” komandası vermək, “belə şey niyə mümkün oldu” sualının dərkinə cəhd eləmək əvəzinə yenə dayanmamaq, Peyğəmbərə və İslama karikatura hücumlarını davam etdirməyə yönəlik aktiv radikal çağırışları görür və eşidirik.

***

“Karikatura müharibəsi” nə qədər absurd və təhlükəli olsa da, belə görünür, yalnız aysberqin görünən hissəsidir. Gerçəkdə isə konfliktin və məlum hadisələrin qayəsi həddən-ziyadə ciddi və böyükdür. Bu xüsusda Hantinqtonun özünün məşhur “Sivilizasiyaların toqquşması” kitabındakı təxminləri doğrulmaqdadır.

Bəllidir ki, kitabda o, SSRİ-nin çöküşündən sonra beynəlxalq münasibətlərin perspektivlərini təhlil edərək, belə bir fikri əsaslandırmağa çalışıb ki, yaxın gələcəkdə İslam dünyası ilə Qərb dünyasının toqquşması qaçılmaz olacaq və bu qarşıdurma “soyuq müharibə” dövründəki konfrontasiyanı xatırladacaq. **“Hələ ki, İslam İslam olaraq, Qərb də Qərb olaraq qalırsa, onların arasında sivilizasiya qarşıdurması yeni tarixin leytmotivi olacaq”** - yazırdı Hantinqton.

Onun 90-cı illərdə təxmin elədikləri çox tezliklə real məzmun almağa başladı: müəyyən qüvvələrin dirijorluq elədiyi və vaxtaşırı Avropa KİV-lərinin təzələdiyi “karikatura təxribatı” Qərblə islam arasında olduqca qorxulu sivilizasiyalararası qarşıdurma üçün, iki əsas və bir-biri ilə sərt rəqabətdə olan sivilizasiyanın dinlərarası, mədəniyyətlərarası toqquşması üçün katalizatoru rolu oynamaqda idi.

Hantinqtonun ortaya çıxan doktrinası antikommunizm xarakterli “soyuq müharibə”nin antiislamizmə transformasiya olunmasında mühüm rol oynadı, bir çox insanların beyninə yeni düşmən obrazının yeridilməsinə yardımçı oldu. Həmin nəzəriyyə xristian Qərb dünyası ilə islam aləmi arasında münaqişənin permanent şəkildə güclənəcəyini yetərincə inandırıcı formada proqnozlaşdırmışdı.

Belə şəraitdə Amerikanın vəzifəsi əhəmiyyətli dərəcədə sadələşirdi: ABŞ “İslamın düşmən mahiyyətini” konkret şəkildə təsdiqləyən hadisələr sırası (“Şər oxu”) qurmalı idi. 90-cı illərin ortalarında gələcək “Şər oxu”nun əsas elementləri artıq aydın şəkildə formalaşmışdı - Qəddafi rejimi, Fələstin problemi. İraq, İran, Suriya, əfqan “Taliban”ı. Bu fonda yalnız “idarə olunan hadisələr” sırasına rəvac vermək qalırdı ki, yeni düşmən obrazı inandırıcı olsun və kütlələrin şüuruna əsasən islam dünyasından qaynaqlanan “təzə hədələr”in alqoritmi yeridilsin. Belə bir vəzifənin öhdəsindən Amerika sürətlə və uğurla gəldi.

***

Qərb təbliğatı dünya hadisələrinin 10 illik total manipulyasiyası hesabına yeni leksika və düşüncə matrisi formalaşdırdı. Çox tezliklə bir sıra təsəvvürlərin yeni sinonimləri yaradıldı: “müsəlman terrorizmi”, “təməlçilik”, “radikal İslam”, “İslam təhlükəsi” və s. Geniş kütlələrin transformasiya edilən şüurlarına yerdilən bu təsəvvürlərdən “yeni düşmən”in obrazı formalaşırdı.

XXI əsrin lap başlanğıcı üçün artıq bu obrazın nəzəri-təbliğati aspektləri hərtərəfli işlənmiş və praktik olaraq adaptasiya edilmişdi. Əlamətdardır ki, nə Hantinqtonun konsepsiyasında, nə də gündəlik “islam refleksiya”sında neft faktoru haqda heç nə deyilmirdi. Bu amil sivilizasiyaların mədəni (uyuşmazlıq) konflikti, islam təhlükəsi, beynəlxalq terrorizm, demokratikləşmənin “üçüncü dalğası” və s. haqda iddialarla çox incə şəkildə kamuflyaj edilirdi. Belə təsəvvürlərlə dünya ictimaiyyətinin diqqəti neftdən yayındırılır, daha qaçılmaz hesab edilən sırf siyasi qisas aksiyalarına fokuslaşdırılırdı.

> **“XXI əsrin başlanğıcı üçün Qərb təbliğatı əsas hədəfinə çatdı - ”Şər oxu" dəhşətlərinin mütəmadi nümayişi ilə, “İslam terrorizmi”nə diqqət yönəltməklə o, çoxlarının şüurunda islamofobiya kompleksi və İslamın düşmən obrazını yaratmış oldu"**

Yeni əsrin başlanğıcı üçün Qərb təbliğatı əsas hədəfinə çatdı - “Şər oxu” dəhşətlərinin mütəmadi nümayişi ilə, “İslam terrorizmi”nə diqqət yönəltməklə o, çoxlarının şüurunda islamofobiya kompleksi və islamın düşmən obrazını yaratmış oldu. Ancaq hansısa qlobal qisas aksiyasını əsaslandırmaqdan ötrü bu, görünür, kifayət deyildi. “Yeni səlib yürüşü” ssenarisinin işə salınması daha əsaslı dəlil tələb edirdi. “İslam terroru” təhlükəsi qarşısında bütün Qərb dünyasını birləşdirmək, islamofobiya dalğasına güclü təkan vermək, habelə qlobal perspektivlər və qazanclara yol acacaq müəyyən “neo-səlib planı”nın startı üçün kart-blanş almaqdan ötrü hansısa ekstra-ordinar bir olay (“11 sentyabr”) baş verməli idi.

Yeri gəlmişkən, ABŞ-ın və onun Avropadakı müttəfiqlərinin bu və ya başqa formada ton verdiyi bütün sonrakı hadisələr mahiyyət etibarilə elə islamın gözdən salınması, müsəlman dünyasında situasiyanın qarışdırılması və islamofobiyanın güclənməsi kimi məqsədlərə xidmət edirdi: ikinci İraq müharibəsi, Əfqanıstanda “əl-Qaidə”nin çoxillik ovu, ərəb ölkələrində dağıdıcı inqilablar dalğası, Suriyada müharibə, qəfildən bütün dünyanı qorxudan müəmmalı İŞİD fenomeni və nəhayət, Peyğəmbərə hazırkı karikatur hücumları fonunda qanlı Paris olayları.

Bütün bu hadisələr zənciri təsadüfdümü?

❑ **Zəfər QULİYEV, politoloq**

**Yanvarın 13-dən etibarən Tarif Şurasının qərarı ilə benzinin və dizel yanacağının qiyməti 2 qəpik bahalaşdırıldı. Belə ki, Aİ-92 markalı avtomobil benzininin pərakəndə satış qiyməti 1 litr üçün 72 qəpik, dizel yanacağının pərakəndə satış qiyməti isə 1 litr üçün 62 qəpik müəyyən edilib.**

# Müxalifət benzinin üzərinə "od tökdü"



**Arif Hacılı:**
"Benzinin qiymətinin artması iqtisadi qanunauyğunluğa ziddir"



**Sərdar Cəlaloğlu:**
"Bu vəziyyətdə təbii ki, sosial narazılıq artacaq"



**Pənah Hüseyn:**
"Artıq xırdavat malların qiymətində 30-50 faiz bahalaşma var"



**İqbal Ağazadə:**
"Qiymətlərin bahalaşmasının məntiqini anlaya bilmədim"

Bütün ölkələrdə benzinin və bu kimi zəruri məhsulların qiymətinin artımı həmişə xalqda mövcud hakimiyyətə qarşı narazılığı artırır. Maraqlıdır, müxalifət funksionerləri benzinin bahalaşmasına nə deyir?

**Müsavat Partiyasının başqanı Arif Hacılı benzinin qiymətinin bahalaşmasının iqtisadi qanunauyğunluğa zidd olduğunu bildirdi:** "Bütün dünyada neftin qiymətinin ciddi surətdə aşağı düşdüyü bir məqamda Azərbaycanda neftin vətəndaşlara satış qiymətinin artırılması əslində iqtisadi qanunauyğunluğa ziddir. Bu, eyni zamanda Azərbaycan hakimiyyətinin cəmiyyətə meydan oxuması deməkdir. Ancaq bunun bütövlükdə cəmiyyət üçün hansı nəticələrinin olacağını söyləmək çətindir. Çünki bu, Azərbaycan hakimiyyətinin cəmiyyətin heysiyyəti ilə oynadığı ilk hal deyil".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, hakimiyyət ölkəmizə dəyən iqtisadi ziyanı sadə vətəndaşların üzərinə salmaq istəyir:** "Deyirlər ki, guya Azərbaycanda istehsal olunan benzinin qiyməti qalxmayıb. Sadəcə olaraq, xaricdən xüsusi bir benzin gətiriblər və o benzinin qiyməti artıb. Əslində Azərbaycan hökuməti bu qlobal iqtisadi böhranın, o cümlədən Rusiyanın blokadasından Azərbaycana dəyən iqtisadi ziyanların hamısının ağırlığını sadə vətəndaşların üzərinə salmaq istəyir. Bu baxımdan qiymətlər artırılır".

**S.Cəlaloğlu iqtidarın yarıtmaz siyasətinin bədəlini xalqın ödədiyini deyir və bu vəziyyət davam edərsə, sosial-iqtisadi narazılığın artacağı fikrindədir:** "Bu vəziyyətdə təbii ki, sosial-iqtisadi narazılıq artacaq. Amma bunun bir obyektiv səbəbi-yəni Azərbaycan iqtidarından asılı olmayan subyektiv səbəbi var. Biz illərdir deyirik ki, neftdən gələn gəlirlər qeyri-neft sektorunun inkişafına sərf olunsun. Dünya Rusiyanı iqtisadi blokadaya alıb. Azərbaycan isə dünyanın acığına Rusiya ilə daha sıx əməkdaşlıq edir. Yəni yanlış siyasətin nəticəsində Azərbaycan zərər görür".

**AXP sədri Pənah Hüseyn benzinin bahalaşmasının analoqu olmayan hadisələrdən olduğunu dedi:** "Bütün dünyada neftin ucuzlaşması ilə əlaqədar olaraq yanacağın qiyməti aşağı düşür. Biz də isə əksinə, artır. Bu da onu göstərir ki, Azərbaycan həqiqətən analoqu olmayan inkişafla gedir. Amma ciddi yanaşsaq görərik ki, hazırda neft qiyməti ilə bağlı olan iqtisadiyyat üçün çox ciddi bir dövr yaşanır. Azərbaycanda da bunu xalqın və sadə vətəndaşların hesabına həll etmək cəhdi doğru olmayan bir siyasətdir. Ciddi şəkildə bu məsələlərin üzərində işləmək lazım gələcək".

Partiya sədri benzinin qiymətinin artmasını nəzərə alaraq ticarət köşklərində müşahidə apardığını bildirib. Onun sözlərinə görə, artıq xırdavat malların qiymətində 30-50 faiz bahalaşma var.

**Ümid Partiyasının sədri İqbal Ağazadə benzinin bahalaşmasının düzgün addım olmadığını bildirdi:** "Qiymətlərin bahalaşmasının məntiqini anlaya bilmədim. Məclisə 0,2 faiz aksiz vergisinin artırılması ilə bağlı sənəd daxil olmuşdu və guya o sənədə uyğunlaşdırıldığı nəzərdə tutulur. Amma məsələnin başqa bir tərəfi də var. Bu tərəf də ondan ibarətdir ki, dünyada neftin qiyməti sürətlə aşağı düşür. Neftin qiyməti aşağı düşürsə, təbii ki, ondan istehsal olunan benzinin də qiyməti müvafiq olaraq aşağı düşməlidir. Dünyanın hər yerində bu cür olur. Yanacağın qiymətinin 2 qəpik qalxması digər qiymətlərin də ən azı 100 faiz qalxmasına səbəb olacaq. Çünki daşınan nəqliyyat xərcləri burada istisna deyil. 70 milyonluq bir vergi ilə dövlət büdcəsinə dəstək olmaq olar. Amma əhalinin cibinə girib büdcəni formalaşdırmaq və bu istiqamətdə siyasət yürütmək doğru deyil".

❑ **Günel MANAFLI**



# Büdcə kəsiri oliqarxların pulları hesabına doldurula bilər

## Ekspertlər hökumətin neftin ucuzlaşmaqda davam etdiyi vaxtda belə bir addıma gedə biləcəyini istisna etmir

**Dünya bazarında neftin ucuzlaşmasına görə dövlət büdcəsində ciddi kəsir yaranıb. Təsadüfi deyil ki, 2015 də məhz kənd təsərrüfatı ili elan edildi. Çünki neft gəlirlərindən asılı olan Azərbaycanın dövlət büdcəsi üçün yırtıq daha da dərinləşə bilər. Neft ucuzlaşmaqda davam edərsə, büdcə kəsirləri daha da arta bilər. Bu halda oliqarxların əlindəki nağd pul kütləsi ilə büdcəni doldurmaq realdırmı?**

**İqtisadçı-ekspert Samir Əliyevin** fikrincə, maliyyə amnistiyası istisna deyil. Ekspert belə bir qərarın olacağını ehtimal edir. Onun sözlərinə görə, hökumətin atacağı addımlar neftin dünya bazarındakı qiymətindən asılı olacaq: "Hər şey gedişatdan asılıdır. Neft ucuzlaşmaqda davam edir. Ancaq oliqarxların əlində olan kapitalın dövriyyə buraxılması da istisna deyil. Hər halda, hökumət qərarı verir. Ağlıma gələn daha çox maliyyə amnistiyasının icrasıdır. Çünki dəfələrlə bu məsələ gündəmdə olub. Hətta 2009-cu ildə qlobal maliyyə böhranı yarananda bu məsələ daha çox müzakirə edilirdi. O zaman İtaliya və başqa Avropa ölkələri maliyyə amnistiyasına getməli oldu. Bu baxımdan neftin dünya bazarındakı qiymətindən asılı olaraq Azərbaycanda da müzakirələr olub, bu məsələ gündəmə gəlib".

**S.Əliyev hesab edir ki, büdcənin doldurulması üçün hökumət artıq qabaqlayıcı tədbirlərə başlayıb:** "Benzinin bahalaşması, əmanətlərə vergi güzəştinin dəyişdirilməsi əlavə vəsait gətirəcək. Hazırda neft 45 dollara düşüb və 2014-cü ildə dövlət büdcəsində 7 faiz azalma olub. 2015-ci ildə isə daha ağır olacağı gözlənilir. Halbuki hökumət bunu dilə gətirmirdi".

Qeyd edək ki, 2015-ci ildə bu istiqamətdə hansısa müsbət nəticə sual altındadır. Çıxış yolu dövlət xərclərinin azaldılmasıdır. Büdcənin müdafiə olunmuş maddələri var ki, dövlət ona uyğun olaraq öz öhdəliklərini yerinə yetirməlidir.

Gəlirlərin azalması ilə əlaqədar isə investisiya maddəsindən istifadə edərək, hansısa layihələri təxirə salmaq olar. Olimpiya oyunları və TANAP-la bağlı layihənin milyardlara başa gəldiyini vurğulayan ekspertlərin fikrincə, digər iri layihələr azaldıla bilər.

❑ **E.SALAMOĞLU**

# SOS: neft quyusu üzərində park salınır

## Bayıl qəsəbəsində iki neft quyusunun üzəri şüşə örtüklə qapadılacaq və üzərində park salınacaq

**Bakının Bayıl qəsəbəsində Su İdman Sarayının tikintisi davam edir. 6 hektarlıq ərazidə inşası aparılan Su İdman Sarayında üç üzgüçülük hovuzunun tikilməsi nəzərdə tutulub. Sarayda keçiriləcək idman yarışlarını 6 min tamaşaçı izləyəcək. Amma bu ərazidə tikinti başlayandan bəri bir neçə dəfə müxtəlif problemlər yaşanıb.**

Belə ki, ilk olaraq ərazidə yaşayan sakinlərin köçürülməsi zamanı gərginlik yaşandı. Neft quyularının olduğu ərazilərdən sakinlər köçürüldükdən sonra park, keçid və Su İdman Sarayı tikilir. Su İdman Sarayının yaxınlığında tikilən piyada keçidi ötən ilin ortalarında çöküb. Keçidin çökmə səbəbi isə qurunt suları olub. İndi isə həmin keçid yenidən tikilir.

Tikinti zamanı ortaya çıxan yeganə problem bu deyil. Belə ki, bəzi iddialara görə, inşa işləri gedən ərazidə əvvəllər olan neft quyuları olub. İndi isə Su İdman Sarayı və park həmin buruqların üzərində tikilir. Tikinti işləri aparmaq üçün isə neft buruqlarının üzəri betonlanır. Bu isə böyük bir təhlükədən xəbər verir. Çünki neft quyusu hər an partlaya bilər. Əgər iddialar doğrudursa, neft quyuları üzərində tikiləcək tikintilər böyük faciəyə yol aça bilər.

İddia edilən məlumatları dəqiqləşdirmək üçün adıçəkilən əraziyə yollandıq. Tikinti işləri qızğın rejimdə davam edirdi. Ətrafda iş maşınları sağa-sola şütüyürdü. Möhkəm külək əsdiyi üçün ətrafı toz-duman bürümüşdü. Buna baxmayaraq, hər kəs iş başında idi.

Adlığımız məlumatları dəqiqləşdirmək üçün tikinti çalı-






şanlarına yaxınlaşdıq. Onlar da bizi mühafizə otağına yönləndirdilər və Firudin müəllim adlı şəxslə danışa biləcəyimizi dedilər. Bir müddət mühafizə otağında gözlədik. Bir müddət sonra tikintidə çalışan fəhlələrdən biri otağın qapısını açaraq, mühafizəçiyə "Firudin müəllimdən icazə aldım. Bir azdan qayıdıram" dedi. Ondan Firudin müəllimin harada olduğunu soruşduq. Öyrəndik ki, o, mühafizə otağına yaxın ofisdədir.

Bir müddət də gözlədik. Mühafizə rəisi bizə yaxınlaşdı və rəhbərlikdən heç kimin ərazidə olmadığını dedi.

- Dəqiq heç kim yoxdur?

- Bəli. Rəhbərlikdən heç kim burada yoxdur. Sizə nə lazım idi?

- Neft quyuları ilə bağlı suallarımız olacaqdı.

- Heç kim yoxdur. Sonra gəlin.

- Axı biz öyrəndik ki, Firudin müəllim ərazidədir. Hətta yaxınlıqdakı ofisdədir.

- Mənə deyilənləri sizə deyirəm. Dedilər ki, heç kim yoxdur.

- Anlaşıldı.

Beləliklə, tikinti rəhbərliyindən heç kim suallarımızı cavablandırmaq istəmədi. Amma buna baxmayaraq, az da olsa informasiya toplaya bildik. Ərazidə çalışan işçilərdən aldığımız məlumata görə, iki neft quyusunun üzəri şüşə örtüklə qapadılacaq. Həmin neft quyuları isə tikiləcək olan parkın ərazisinə düşür: **"Parkın ərazisinə iki neft quyusu düşür. Onların üzərini betonlamayacaqlar. Əksinə, şüşə örtüklə ətrafı qapadılacaq. Gözəl görünüş veriləcək".**

Ərazidə yaşayan sakinlər də narahatdır: **"Burada yaşayan camaatın evlərini sökdülər. Söküntülər zamanı bəhanə olaraq dedilər ki, ərazi neft şirkətinə məxsusdur. Və burada evlərin tikintisi təhlükəlidir. Bəs indi nə dəyişdi ki, həmin neft quyularının üstündə tikinti işləri aparırlar".**

Qeyd edək ki, Su İdman Sarayı bu il Avropa ölkələri arasında ilk dəfə Bakıda təşkil olunacaq yay oyunlarına görə tikilir. Onun layihələndirilməsini və tikintisini Cənubi Koreyanın "Securo CO.LTD" şirkəti həyata keçirir.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 8 (6036) 14 yanvar 2015

# İslam Kərimov "Putin İttifaqı"na "yox" dedi


İslam Kərimov

**"Özbəkistan heç vaxt keçmiş SSRİ-nin bənzəri olan birliklərə qoşulmayacaq". APA-nın 12news.uz-a istinadən xəbərinə görə, bu bəyanatla Özbəkistan prezidenti İslam Kərimov ölkənin yeni seçilmiş parlamentinin aşağı palatasının ilk iclasında çıxış edib. Onun sözlərinə görə, hazırda bəzi ölkələrdə ittifaq dövlətinin keçmiş sovet sisteminə qayıdış cəhdləri müşahidə olunur: "Bəzi xarici telekanallarda Lenin və Stalin çağlarının, SSRİ dövrünün tərifləması nəzərə çarpır. Biz bu cür yanaşmanı qəbul edə bilmərik. Bizim xalqın istəklərinə cavab verən öz yolumuz var.**

Bir daha qeyd etmək istəyirəm ki, bu cür keçmişə qayıdış olmayacaq". İ.Kərimov Özbəkistanın Avrasiya İttifaqına və Gömrük İttifaqına qoşulmayacağını, eləcə də hərbi-siyasi bloklara üzv olmayacağını bəyan edib: "Özbəkistan ərazisində hərbi baza və obyektlər də yerləşdirilməyəcək. Bunu 2012-ci ildə qəbul edilmiş ölkənin xarici siyasət fəaliyyətinin konsepsiyası da diktə edir".

"Rusiya rəsmiləri Rusiyanın SSRİ-ni bərpa etməyə hazırlaşmasını heç vaxt söyləməyiblər".

Axar.az xəbər verir ki, bu açıqlama ilə Rusiyanın xarici işlər naziri Sergey Lavrov özünün latviyalı həmkarı Edqar Rinkeviçlə görüşü zamanı söyləyib.

O, Rusiyanın SSRİ-ni bərpa etmək niyyətinin olmadığını bildirib: "Siz öncə dediniz ki, Rusiyanın Sovet İttifaqını bərpa edərək, rus torpaqlarını toplamağa cəhd etməsi hər kəsi qorxudur. Əgər sizdə hansısa Rusiya rəsmisinin dilindən Sovet İttifaqının və rus dünyasının bərpa edilməsi ilə bağlı sitat varsa, onu bizə də təqdim etməyinizi xahiş edərdik".

# Hüsnü Mübarək barəsində çıxarılmış hökm ləğv edilib


Hüsnü Mübarək

**Misir məhkəməsi sabiq prezident Hüsnü Mübarək barəsində çıxarılmış hökmü ləğv edib. APA-nın "Frans Press"ə istinadən verdiyi məlumata görə, müvafiq məhkəmə işi ilə əlaqədar təkrar baxış təyin olunub.**

Yeni məhkəmə prosesinin nə vaxt başlayacağı bəlli deyil.

Qeyd edək ki, 2014-cü ilin may ayında məhkəmənin qərarı ilə H. Mübarək dövlət büdcəsindən 14 mln. dolların mənimsənilməsi ilə əlaqədar 3 il həbs müddətinə məhkum edilib.

Hazırda 86 yaşlı H. Mübarək Qahirənin hərbi hospitallarından birində müalicə alır.

# Həsən Ruhani nefti ucuzlaşdıran ölkələri hədələdi


Həsən Ruhani

**Dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsini təşviq edən ölkələr bu qərarlarına peşman olacaq və bunun acı nəticələrindən İran kimi zərər çəkəcəklər".**

APA-nın "Reuters"ə istinadən xəbərinə görə, bu bəyanatla İran prezidenti Həsən Ruhani çıxış edib.

"Əgər İran neftin qiymətinin aşağı düşməsindən zərər çəkəcəksə, Səudiyyə Ərəbistanı və Küveyt kimi neft istehsal edən ölkələr İrandan daha çox zərər çəkəcəklər" - deyə H.Ruhani qeyd edib.

# Niyə məhz Parisin hədəf seçilməsinin sirri

"Charlie Hebdo"da qətliam törədilən gün İraqda, Yəməndə və Suriyada da terror aktları olub və üst-üstə yüzədək adam həlak olub, amma bütün dünya Fransadakı 17 ölü haqda danışdı...



**Fransada törədilən terror aktları, dünya liderlərinin Paris küçələrində zorakılığa qarşı birləşərək terror təşkilatlarına cavab olaraq boy göstərməsi 2015-ci ildə dünya düzənində yeni bir prosesin başladığından xəbər verir. İfrat dinçi dairələr Paris hadisələrinin dünyada anti-İslam hərəkatını alovlandıracağını, Avropa və Amerika isə Paris hadisələrinin digər terror təşkilatlarını "ruhlandıracağını", digər dövlətlərdə də yeni hücumlar təşkil edəcəyini proqnozlaşdırırlar.**

Parisdəki nümayişdə uzun illərdi bir-birilərini terrorda günahlandıran Fələstin muxtariyyətinin lideri Mahmud Abbasla İsrailin baş naziri Netanyahunun bir cərgədə addımlamasına baxmayaraq, Parisin partladılması, eyni adlı məşhur Azərbaycan filmində deyildiyi kimi günahsız adamların başında çartlaya bilər. Fransanın "qara yanvarından" dünya üçün nə doğacağı hələ ki sirr olaraq qalır: ikinci Əfqanıstan, üçüncü İraq müharibəsimi və ya Suriya diktatoru Bəşər Əsədin çoxdan edamını gözləyən başımı...

"Bəs niyə məhz terror hədəfi kimi Fransa seçilib" sualı indi daha aktualdır. Çünki indindən sonra baş verə biləcək bütün sualların açar cavabı da burdadır. Nədir səbəb? Yalnız Fransanın antiterror koalisiyasındakı barışmaz mövqeyimi? Bəlkə terrorçular məhz mədəni Avropanın göbəyi Parisi hədəf seçməklə bütün dünyaya meydan oxumaq istəyiblər? Bəs Fransa Senatının dekabr ayında Fələstini dövlət olaraq tanınmasını əks etdirən qərar layihəsini qəbul etməsi şiələri kafir hesab edən İŞİD-i qıcıqlandıra bilərdimi? Daha bir maraqlı fakt da var: İŞİD-in üstələndiyi terror aktından bir neçə saat əvvəl Fransa Müdafiə Nazirliyi Fars körfəzinə özünün təyyarə daşıyan gəmilərini məhz "İslam Dövləti"nə qarşı göndərəcəyini açıqlamışdı! Qəribədir, terrorçuların "Charlie Hebdo"nu hədəf seçən gün İraqda, Yəməndə və Suriyada da terror aktları olub və üst-üstə yüzədək adam həlak olub. Amma bütün dünya Parisdəki 17 ölü haqda danışdı... Demək, terrorçular nə düşünmüşdülərsə, doğurduğu reaksiya ondan daha artıq oldu...

***

Təqribən üç ay əvvəl İŞİD-ə qarşı 40-a yaxın ölkənin dəstəyi ilə formalaşdırılan koalisiya üçün görüş yeri kimi Paris seçilmişdi. Həmin görüşdə iştirak edənlərin tən yarısı yanvarın 11-də Parisə gəlmişdilər yenə. Bu dəfə Fransa xalqına başsağlığı vermək üçün...Yeri gəlmişkən, Türkiyə o toplantıya soyuq yanaşdı, hansısa arqumentlərlə antiİŞİD koalisiyasına əsgəri deyil, sosial dəstək verəcəyini vəd etdi. Türkiyənin bu hərəkətinin cavabını Fransa prezidenti Fransua Olland Parisdəki dəstək nümayişində çox qaba formada Əhməd Davudoğluna münasibətdə göstərdi. Hamını bağrına basan Olland Davudoğlunun salamını belə zorla aldı...

**Niyə Fransanın hədəf seçilməsi barədə ATV kanalının şərhinə diqqət yetirək:** "Fransanın Daxili İşlər Nazirliyinin 2 il əvvəl yaydığı statistik məlumat diqqət çəkir. Fransada hər il 4 min insan dinini dəyişdirərək İslamı qəbul edir. Ölkədə dini və etnik zəmində statistik say hesabatı aparılması qanuni olmadığı üçün müsəlman əhalinin sayını sadəcə təxmin edə bilərik: minimum 6-7 milyon civarında...Ölkədə terrorla mübarizə dəstələrinin 20 gün əvvələ qədər Paris, Normandiya və Tuluzada İŞİD-ə qarşı həyata keçirdiyi genişmiqyaslı əməliyyatda ortaya çıxan məlumat da maraqlıdır. Fransanın rəsmi dairələri, ölkədən təqribən min nəfərədək insanın İŞİD sıralarına qoşulduğunu, bunların təqribən yarısının isə münaqişə bölgəsində olduğunu, İŞİD-ə qatılanların nəçəsinin sonradan müsəlman olan fransızlardan ibarət olmasını təxmin edirlər. 2014-cü ilin noyabr ayında İŞİD tərəfindən yayımlanan iki videoda isə fransız olduğu ehtimal edilən və əlində "Kalaşnikov" avtomatı tutan bir İŞİD üzvünün, Fransaya hücum çağırışı etdiyi, ikinci videoda müsəlman olduğunu söyləyən bir başqa militanın bənzər bir çağırış etdiyi görünür. Videoların yayımlanmasından əvvəl Fransa 19 sentyabrda İŞİD-ə qarşı ilk hava hücumu gerçəkləşdirmişdi. Bu videoların ardınca fransız polisi həyəcan siqnalı verdi. Hətta cəmiyyət arasında baş qaldıran qorxu və çaşqınlığı aradan qaldırmaq üçün Fransanın daxili işlər naziri Bernard Cazeneuve mətbuata açıqlama verərək sivillərə yönəlik təhdidin Fransanın İŞİD-ə qarşı mübarizəsində haqlı olduqlarını göstərdiyini bildirdi: "Lakin Fransa qorxmur. Çünki bu təhdidlərə qarşı hər zaman hazırlıqlıydı, indi də hazırdır". Amma yanvarın 7-də baş verən terror, deyəsən, bunun belə olmadığını ortaya qoydu" deyə, yerli telekanalın şərhində bildirilir.

***

Fransanın müsəlman dünyası ilə savaşda həmişə öncüllərdən biri kimi seçilməsi də onu terrorçuların hədəfinə çevirə bilərdi. "Ərəb baharı"nın başladığı Tunis və Misirlə yanaşı Liviyada (2011-ci ilin oktyabrında), bunun ardınca Kuaşi qardaşlarının təlimat aldığı Yəməndə hakimiyyət inqilabçı qüvvələrin-müxalifətin əlinə keçdi. Liviyada 42 il hakimiyyətdə olan Müəmmar Qəddafi Fransa iqtidarının ən yaxın dostlarından idi. Amma Qəddafinin "qələmi qırılandan" sonra Benqazidə toplanmış silahlı müxalifətə ilk dəstəyi Fransa verdi və Liviyanın bombalamasında da ilk havaya qalxan bu ölkənin qırıcıları oldu. Fransa Liviya müharibəsində anti-Qəddafi koalisiyasında çox fəal oldu və bu hələ də əlinə böyük maliyyəsi olan Qəddafi əşirətini ciddi narazı saldı. Şübhə yoxdur ki, Paris terrorçular əlində girinc olanda sevinənlər sırasında Liviyanın, Misirin, Yəmənin devrilmiş hakimiyyət nümayəndələri, eləcə də Bəşər Əsəd rejiminə qarşı sərt mövqe sərgiləyən Suriya hakimiyyəti də vardı...





**Olland dünya liderlərini başına toplamaqla bundan sonrakı addımlarına izn aldı**

Fransa Bəşər Əsəd rejiminə qarşı mübarizə aparan qüvvələri-Suriya Milli Koalisiyasını qanuni hökumət kimi tanıyan ilk ölkədir həm də... Fransa prezidenti Fransua Olland ötən il bir neçə dəfə açıq şəkildə NATO-dan Dəməşq rejiminə qarşı qəti və məqsədyönlü addımların atılmasını istəmişini də unutmayaq. Böyük Britaniya parlamenti Suriyaya qarşı əməliyyatlarda iştirak etməkdən imtina etməsi ilə bağlı qərar verərkən, Fransa prezidenti bütün əməliyyatın məsuliyyətini üzərinə götürməyə hazır olduqlarını bəyan etmişdi.

Dekabrın 3-də Fransa prezidenti Fransua Ollandla İraqın baş naziri Heydər əl-Abadinin Yelisey sarayında görüşdən sonra İŞİD döyüşçüləri ilə mübarizədə hərbi dəstəyini gücləndirməyə hazır olduğunu bildirmişdi...

Beləliklə, xoruz kimi hamının kümesinə girməyə adət etmiş Fransa öz "evində vuruldu". Bundan sonra Fransa ya intiqamını almalı, ya da xüsusən müsəlmanlar üçün çox aqressiv görünən xarici siyasətində korrektələr etməlidir. Olland dünya liderlərini başına toplamaqla bundan sonrakı addımlarına izn aldı...

❑ **Xəbər xidməti**

YENİ MÜSAVAT
N 8 (6036) 14 yanvar 2015

# Etibar Erkinin qətlə yetirilməsindən 16 il ötür

## 1999-cu ilin bu günü ekstrasens iki oğlu ilə birlikdə amansızcasına öldürüldü

**Yanvarın 14-də ekstrasens Etibar Erkinin ölümünün 16 ili tamam olur. Tanınmış ekstrasens, Azərbaycan Xalq Biliciləri və Ekstrasensləri İttifaqının sədri Etibar Erkin 1999-cu il yanvarın 14-də iki oğlu ilə öz mənzilində amansızlıqla qətlə yetirilib.**

Azərbaycanda Xalq Biliciləri və Ekstrasensləri İttifaqının, Parapsixoligiya və İlahiyyat İnstitutunun yaradıcısı, ekstrasens Etibar Erkin (Məmmədəliyev) 1948-ci il avqustun 3-də Qazax rayonunda anadan olub. 1971-ci ildə Politexnik İnstitutunu bitirib, 1980-89-cu illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsində işləyib.

Mühəndis, rəssam, jurnalist, şairliklə yanaşı, irfani elmlərə də maraq göstərib. 1981-ci ildə Moskvadan Bakıya gəlmiş yoqların məsləhəti ilə SSRİ Elmlər Akademiyası Fəlsəfə İnstitutunda akademik A.Spirkinin rəhbərlik etdiyi xüsusi qrupda təhsil alıb. Fövqəlduyum qabiliyyəti təsdiq edildikdən sonra o, 1989-cu ildə Azərbaycanda "İnsan və Elm Mərkəzi"ni yaradıb. Yaratdığı Xalq Biliciləri və Ekstrasensləri İttifaqının nizamnaməsində göstərilir ki, məqsəd Azərbaycanda qeyri-adi duyuma, ekstrasens qabiliyyətə malik olan şəxsləri, eləcə də bu sahəyə aid olan bilgiləri üzə çıxarıb, onların birgə fəaliyyətini həyati xidmətlərə yönəltmək və enerji informasiya mübadiləsi üzrə antiinsani, antihumanist təcrübələrə, cadugərliyə, sehrbazlığa qarşı mübarizə aparmaqdır.

Mərhum ekstrasensin xatirəsinə yazılan "Etibarın dünyası, dünyanın etibarı" (elmi məqalələri və proqnozları), Səbuhi Rəhimlinin "Böyük şerin düşməni", Gülarə Munisin "İtkin" kitabları, Rita Odinokovanın - "İlahi mənbə" povesti yazılıb.

1999-cu il yanvarın 14-də E.Erkin və iki oğlu Bayıl qəsəbəsində yerləşən evində qətlə yetirilir. Qətlin "Ceyşullah" radikal dini qruplaşma tərəfindən törədildiyi elan olunur. E.Erkinin qətlinin əsas səbəbi də məhz onun görücülük qabiliyyəti və güclü parapsixoloq olması ilə bağlı idi. Ancaq mərhumun yaxınları bu versiyanı inandırıcı saymırlar. Vaxtilə E.Erkinin öldürülməsinin üstünü açmağa yaxın olan tanınmış kriminalist Rövşən Əliyevin qətlindən sonra bu barədə danışmaq çoxları üçün təhlükə mənbəyi görünür. Ekstrasensin qətlinin "Ceyşullah" tərəfindən həyata keçirilməsi versiyası da ortaya atılıb. O zaman belə məlumatlar var idi ki, Etibar Erkini öldürən "Ceyşullah" dini təşkilatının üzvü ekstrasensi guya şeytani əməllərlə məşğul olduğu üçün öldürdüyünü elan edib. Həmin şəxs hazırda ömürlük həbsdədir və əfv olunmaq üçün bir neçə dəfə müraciət edib. Hazırda Azərbaycan həbsxanalarında "Ceyşullah"ın üzvü olan xeyli məhbusun cəza çəkdiyi bildirilir.



Daha sonra E.Erkinin qətlində Hacı Məmmədov qrupunun əli olması ilə bağlı versiyalar ortaya çıxsa da, bu günə qədər digər müəmmalı qətllərdə olduğu kimi bu işin də istintaqı ilə bağlı şübhələr qalır. Bu gün də ekstrasensin gerçək qatillərinin kimliyi sual altındadır. Keçmiş polis zabiti, akademik Ziya Bünyadovun qətlini araşdıran istintaq qrupunun üzvü Salman Əliyev AzadlıqRadiosuna müsahibəsində ekstrasensin qətli işini Hacı Məmmədovla bağlayıb: "Etibar Erkini *(Azərbaycan Ekstrasenslər Birliyinin sədri)* götürək. Bu adamı "Ceyşullah"ın öldürdüyünü deyirlər. Ceyşullah Allahın qoşunu deməkdir. Bunların Etibar Erkinlə hər hansı problemi olubsa, onu istənilən vaxt və yerdə qətlə yetirərdilər. Amma Allahın adından hərəkət edən təşkilat onun iki oğlunu necə qətlə yetirə bilərdi? İkincisi, adətən qapını tanıdığına açırsan. Və ya polisə... Başqa məsələlər də var. Mən ikisini dedim sadəcə. Hacı Məmmədovun dəstəsinin törətdiyi cinayətlərin üslubu ilə Etibar Erkinin qətlə yetirilməsi üslubu yüzdə yüz üst-üstə düşür. Mən bu qətldə Hacı Məmmədovdan şübhə edirəm. Ola bilər "Ceyşullah"dan da iz itirmək üçün istifadə ediblər..."

Qeyd edək ki, bu il E.Erkinin 67 yaşı tamam olur. Bununla bağlı mərhumun yaxınları və dostları hər il olduğu kimi, bu il də anım tədbirləri həyata keçirməyi, mərhumun məzarının ziyarət olunmasını planlaşdırırlar.

❑ **KƏNAN**

# Şəkidə ana üç uşağını götürüb Suriyaya gedib - şok təfərrüat

## Rayonun Daşüz kənd sakini İbrahim Məmmədovun arvadı, qayınanası, baldızı və bacanağı azyaşlı uşaqlarını götürüb İŞİD-ə qoşulublar; "Qızlarımın biri 15, biri 12, oğlum isə 13 yaşındadır, qardaşları fermanı satıb Suriyaya getdilər"

**Azərbaycandan İŞİD-ə qoşulan ailələrin sayı durmadan artır. Şəkidə daha bir ailə Suriyadakı döyüşlərdə iştirak üçün gedib. Hadisənin şok effekt doğuran məqamları evli qadının üç övladını götürərək Azərbaycanı tərk etməsidir. Belə ki, Şəkinin Daşüz kənd sakini İbrahim Məmmədov Rusiyadan evinə qayıdanda ailəsinin Suriyaya getdiyini öyrənib. Kənd sakini "Üç nöqtə" qəzetinə müsahibəsində deyib ki, həyat yoldaşı İŞİD-ə qoşulub:**




### "Qayınlarım neçə ildir orada döyüşür"

"Qayınanam, bacanağım, baldızım və həyat yoldaşım üç uşağımı da götürüb Suriyaya qaçıblar. Həyat yoldaşımın qardaşı Suriyada döyüşür, onlar da onun yanına gediblər. Bilmirəm, uşaqlarımı necə yoldan çıxarıblar. Onları aldadıblarmı, qorxuzublarmı, bu barədə məlumatlı deyiləm. Amma bildiyim odur ki, onlar dekabrın 23-də Balakən rayonu ərazisindən ölkə sərhədini keçərək Gürcüstana, oradan isə Türkiyə vasitəsilə Suriyaya keçiblər".

**İ.Məmmədovun sözlərinə görə, onun qayınları artıq bir neçə ildir Suriyada döyüşlərdə iştirak edir:** "Qayınanam Şahbanova Qərinə Sədi qızı, bacanağım Alxasov Daşqın Abid oğlu və baldızım Alxasova Bahar Beydullah qızı mənim övladlarımı da özləri ilə aparıblar. Amma onlar bunu necə edib, hələ də bilmirəm. Çünki mən 18 aprel 2013-cü ildə Rusiyaya işləməyə getmişəm. Orada işləyərək ailəmin dolanması üçün pul göndərirdim. Ölkəmizə isə bu il dekabrın 27-də qayıtmışam.

Anam mənə məlumat verdi ki, həyat yoldaşım Məmmədova Elnurə Beydullah qızı anasının və bacısının təkidi ilə uşaqlarımı da götürüb onlarla Suriyaya gedib. Böyük qızım - Məmmədova Günay İbrahim qızının 15, kiçik qızım - Məmmədova Ülkər İbrahim qızının 12, oğlum - Məmmədov Rüstəm İbrahim oğlunun isə 13 yaşı var".

### "Kəndimizdən 20 nəfərdən çox Suriyaya gedib"

**Şəki sakini bildirib ki, əvvəlcədən böyük qaynı Sahib Şabanovun Suriyada döyüşlərdə iştirak etdiyini eşidib:** "Sonradan isə o, qardaşları Tahir Şabanovla Rövşən Şabanovu da özü ilə apardı. Bu barədə biləndən sonra dəfələrlə yoldaşıma tapşırmışdım ki, birdən, onu da məcbur edərlər, heç yerə getməsin.

O isə məni arxayın etmişdi ki, heç yerə getməyəcək. Həm də mən arxayın idim ki, atanın icazəsi olmadan heç kəs yetkinlik yaşına çatmayan uşaqları ölkədən çıxara bilməz. Mən isə həyat yoldaşıma uşaqları ölkə ərazisindən çıxarmaqla bağlı heç bir etibarnamə verməmişəm. Mən Rusiyaya gedərkən heç onların pasportu da olmayıb. Bu hadisəni eşidib Azərbaycana gələndən sonra öyrəndim ki, onlar Bakı şəhəri ərazisində notarius Hüseynov Səadət Eldar oğlunun əli ilə sənədləri hazırlayıblar".

**İ.Məmmədovun sözlərinə görə, Şəki şəhərinin Daşüz kəndində 20 nəfərdən artıq adam Suriyada döyüşür:**

"Mənim qayınlarım Türkiyə vətəndaşlarının vasitəsilə ora gedib. Baldızım - Həsənova Esmira Beydullah qızı Türkiyə vətəndaşı ilə evli idi. Onlar Adanada yaşayırdılar. Bir neçə il öncə Türkiyə vətəndaşları qaynım Sahib Şabanova da maddi köməklik göstərirdilər. O, əvvəlcə bir qədər mal-qara aldı.

Sonra onları satıb bir ferma düzəltdi. Sonra fermanı da satıb Suriyaya getdi. Düşünürəm ki, qayınanamgil də Türkiyədə yaşayan baldızımın vasitəsilə Suriyaya gediblər. Dekabrın 28-dən etibarən isə bu məsələ ilə bağlı ölkənin bütün güc strukturlarına, ölkəmizin Türkiyədəki səfirliyinə məlumat vermişəm. Amma hələ ki heç bir reaksiya verən yoxdur".

### Notarius imzası saxtadı, "Bandotdel" araşdırır

**Hadisə ilə bağlı axar.az araşdırma aparıb və 48 saylı notariat kontorundan notarius Səadət Hüseynov sayta deyib ki, uşaqların sərhədi keçməyi üçün verilən etibarnamələrə vurulan imzalar saxtadır: "Məsələdən bizim də xəbərimiz var.** Ədliyyə və Daxili İşlər Nazirliyi də məsələni araşdırıb. Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi də araşdırma aparır.

Araşdırma nəticəsində təsdiqlənib ki, həmin uşaqların ölkədən çıxa bilmələri üçün onlara verilən etibarnaməyə atılan imzalar notarius Hüseynov Səadətə məxsus deyil. Ümumiyyətlə, sənədə atılan imzalar bizim notariat kontoruna aid deyil. Saxta sənədlərdir".

Daha əvvəl isə 40-a yaxın azərbaycanlı vəhhabi ailə Suriyaya gedib. Azadxeber.az-a Füzulidən məcburi köçkün düşən Fərhadovlar ailəsi məlumat verib. Hazırda sözügedən ailənin 3 oğlu xanımları ilə birgə Suriya ərazisindədirlər. Kişilər saqqalını qırxaraq, qadınlar isə hicablarını açıb kosmetikadan istifadə edərək Azərbaycandan çıxmağa nail olublar. Ailələrin böyük əksəriyyəti evlərini və əşyalarını sataraq Azərbaycanı birdəfəlik tərk ediblər. Fərhadovlardan gedən ailə üzvlərinin adları bunlardır - Fərhadov Məhəmməd, Fərhadov Seymur, Fərhadova Rahidə, Fərhadova Şəfiqə, Fərhadova Cəmalə və Fərhadov Vüqar. İsmayıllı rayonundan isə Suriyaya gedən vəhhabi ailələri geri dönüb. Əsəd rejiminə qarşı döyüşməyə gedən vəhhabilərin arvadları geri qayıdıb.

Rayonda bərbər işləmiş Rahidin həyat yoldaşı əri döyüşlərdə öldürüldükdən sonra Azərbaycana çətinliklə də olsa, geri dönməyə müvəffəq olub. Bu ilin avqustunda Suriyaya gedən bərbərin sentyabrın 27-də ölüm xəbəri yayılmışdı. Artıq onun arvadı və övladı İsmayıllıdadır. Məlumata görə, güləşçi Rəşad Baxşəliyevin də xanımı geri dönüb. Qeyd edək ki, onlarla belə ailə Suriyaya gedib.

❑ **Hazırladı: Emil SALAMOĞLU**

YENİ MÜSAVAT
N 8 (6036) 14 yanvar 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# Gündə 75 dəfə pozulan atəşkəs və baş qatan beynəlxalq qurumlar...

## Azərbaycanın torpaqlarını azad etmək üçün silaha sarılması hər an baş verə bilər; Zakir Həsənov: "Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etməsi nəticəsində sülh prosesi yubanır və danışıqların uzadılması bölgədəki şəraitə mənfi təsir göstərir"

**2015-ci ilin yanvar ayının yarısı geridə qalır. Bu müddətdə Qarabağ münaqişəsi ilə bağlı beynəlxalq qurumlar, həmsədr ölkələr sülh danışıqları istiqamətində müxtəlif səpkili çağırışlar etsələr də, Ermənistan öz ampluasına sadiq qalmaqdadır. Düşmən ölkə birmənalı şəkildə ipə-sapa yatmayacağını nümayiş etdirən addımlarını davam etdirir. Erməni Silahlı Qüvvələri cəbhə xəttində gərginliyin davam etməsində maraqlıdırlar.**

Atəşkəsin ermənilər tərəfindən intensiv şəkildə pozmaları səbəbindən cəbhə xəttində gərginlik yaşanmasından həmsədr ölkələrin təmsilçiləri narahatlıqlarını ifadə etməklə kifayətlənirlər. Təbii ki, sərt reaksiyalar göstərilmədiyindən düşmən ölkə təxribatlarını davam etdirir.

Məsələn, yanvarın 13-də sutka ərzində ermənilər atəşkəsi 75 dəfə pozublar. Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlar, minaatan və qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 75 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar, Berkaber, Vazaşen, Azatamut, Noyemberyan rayonunun Dovex, Barekamavan, Şavarşavan, Voskevan, Voskepar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı, Cəfərli, Kəmərli, Fərəhli, Quşçuayrım, Aşağı Əskipara kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Kəngərli, Yusifcanlı, Şıxlar, Şuraabad, Mərzili, Cəvahirli, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb. Düşmən cavab atəşi ilə susdurulub.

Bu təxribat xarakterli atəşkəs pozulması "siyasəti"nin arxasında Ermənistanın hansı məqsədlər güddüyü bəllidir. Düşmən ölkə sülh danışıqlarından yayınmaq üçün zaman-zaman bu davranışı sərgiləyib və bu gün də eyni mövqe sərgiləyir.

### Təmas xəttində məramı bilinməyən(?!) monitorinqlər

Bu kontekstdə maraqlı olan məqam isə hər dəfə Ermənistanın atəşkəs rejimini intensiv şəkildə pozmasından sonra ATƏT-in təmas xəttində monitorinq keçirməsidir. Yenə də təmas xəttində belə monitorinq keçiriləcək.

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq yanvarın 14-də Füzuli rayonunun Horadiz kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır. Bu barədə Müdafiə Nazirliyinin rəsmi saytında məlumat verilib.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov və Piter Svedberq keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Jiri Aberle və Saymon Tiller keçirəcəklər.

Ən maraqlısı odur ki, ATƏT təmsilçilərinin elan edilmiş bu monitorinqləri zamanı əksər hallarda insident qeydə alınmır və rəsmi hesabatlarda cəbhə xəttində ermənilərin sanki heç bir təxribat törətmədikləri görüntüsü yaranır. Ekspertlər hesab edir ki, ATƏT təmsilçiləri real durumu bilmək üçün elan edilməmiş monitorinqlər də keçirməlidirlər və həmçinin Müdafiə Nazirliyinin rəsmi şəkildə yaydığı atəşkəsin pozulmasına dair məlumatları da nəzərə almalıdırlar.

İndiki qaydada keçirilən monitorinqlər isə sadəcə baş qatmaq kimi dəyərləndirilir. Həta bəzi ekspertlər bunun arxasında ATƏT təmsilçilərinin hansısa digər şəxsi maraqlarının da dayandığını iddia edirlər...

***

Fakt isə bundan ibarətdir ki, Ermənistanın birmənalı olaraq sülh danışıqlarından imtina etməsi və pozuculuq fəaliyyətini, işğalçılıq siyasətini davam etdirməsi ağır nəticələrə səbəb ola bilər. Söhbət ondan gedir ki, Azərbaycan tərəfi 2014-cü ilin ikinci yarısında - Qarabağ nizamlanması üzrə danışıqların yeni mərhələsi başlanan ərəfədə konkret nəticələr olacağına daha çox ümid edirdi. O zaman rəsmi şəkildə, həmçinin ekspertlər səviyyəsində bildirilirdi ki, bu, Ermənistan üçün son şansdır. Əgər düşmən ölkə bu dəfə də sülh danışıqlarından, konkret olaraq işğal etdiyi ərazilərdən çıxmaqdan imtina edərsə, Azərbaycan tərəfinin artıq öz ərazilərini işğaldan azad etmək üçün silaha sarılmaqdan başqa digər variantı qalmır. Bu, Azərbaycanın konstitusion haqqıdır, eyni zamanda bütün beynəlxalq normalar, beynəlxalq hüquq bizə öz ərazi bütövlüyümüzü bərpa etməyə haqqı verir.

Düzdür, hazırda beynəlxalq qurumların, həmsədrlərin növbəti dəfə danışıqlar prosesini bərpa etməyə çalışdığı sezilir. Çünki onlar Azərbaycanın müharibə etmək əzmində olmasının fərqindədirlər. Hansı ki, həmin qüvvələrə regionda münaqişənin yenidən alovlanması təhlükəsizlik və enerji maraqları baxımından sərf etmir. Ona görə də güman edilir ki, aidiyyəti qurumlar, həmsədrlər yaxın zamanlarda rəsmilərin görüşlərini təşkil etməyə, yaxud da ortaya hansısa yeni bir nizamlanma planının çıxarılmasına çalışırlar. Bununla bağlı indiyədək rəsmi açıqlama olmasa da, verilən bəzi bəyanatlarda bu cəhdlərin edildiyi sezilir.

***

Bu arada regionda sabitliyin qorunmasına maraqları olan dövlətlərin təmsilçiləri də Azərbaycanda rəsmi şəxslərlə görüşlər keçirilər. Görünür, onlar Azərbaycanın haqlı olaraq əks-hücuma keçə biləcəyinin fərqindədirlər və görüşlər bu istiqamətdə narahatlıqlardan doğur.



### Zakir Həsənov Niderland Krallığının səfiri ilə nədən danışıb?

Yanvarın 13-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Robbert Gabrielseni qəbul edib.

Müdafiə naziri regiondakı hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini, bunun nəticəsində sülh prosesinin yubanmasını və danışıqların uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərməsini diqqətə çatdırıb.

Görüşdə Azərbaycanla Niderland arasında əlaqələrin inkişaf etdirilməsində qarşılıqlı marağın olması və hərbi sahədə münasibətlərin qurulması istiqamətində fikir mübadiləsi aparılıb.

***



### Əhməd Davudoğlu: "Cənubi Qafqazda dondurulmuş münaqişələri birgə səylərlə nizamlamaq olar"

Belə bir vaxtda qardaş Türkiyədə Qarabağ münaqişəsinin həlli məsələsi gündəmdədir. Türkiyə mətbuatında rəsmi şəxslərin bu barədə bəyanatları da intensivləşib. "Türkiyə Cənubi Qafqazda dondurulmuş münaqişələrin nizamlanmasının tərəfdarıdır". "Trend"in Türkiyənin "Cümhuriyet" qəzetinə istinadən verdiyi məlumata əsasən, bunu Türkiyənin baş naziri Əhməd Davudoğlu deyib. Onun sözlərinə görə, Cənubi Qafqazda dondurulmuş münaqişələri birgə səylərlə nizamlamaq olar.

Nəzərə çatdıraq ki, hələ ötən ilin sonlarından Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin çözülməsi prosesində daha yaxından iştiraka cəlb edilməsi məsələsi gündəmdədir. Ekspertlər hesab edir ki, məsələnin sülh yolu ilə həllində bu çox vacib amildir və ciddi effekti ola bilər.

Burada bir məqamı qeyd edək ki, Zakir Həsənov müdafiə naziri təyin olunduğu vaxtdan indiyədək xeyli sayda xarici dövlətlərin təmsilçiləri ilə görüşüb, həmçinin bir çox aparıcı dövlətlərə rəsmi səfərə gedib. Onun ilk gündən verdiyi açıqlamalardan sezilir ki, sülh danışıqlarının yubanacağı təqdirdə Azərbaycanın öz torpaqlarını azad etmək üçün səfərbərlik elan etməsi real alternativ plan kimi nəzərdə tutulub və buna ciddi hazırlıq gedir. Ekspertlər hesab edir ki, bu tam doğru bir mövqedir, Ermənistana dərs verməyin zamanı yetişib...

***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Maqsud MAHRIZLI

YENİ MÜSAVAT

Son səhifə

N 8 (6034) 14 yanvar 2015



# Komada idi, pul göstərdilər, özünə gəldi

**Çində yaşayan Syao Li uzun müddət komada qalandan sonra qəribə üsulla ayılıb. Ona 100 yuan məbləğindəki əsginazı göstərəndən sonra komadan ayılıb. 2014-cü ilin mart ayında baş vermiş bu hadisə barədə media ancaq indi xəbər tuta bilib.**

Çinli Şençjen şəhərindəki xəstəxanada yatırmış. Oyanmamışdan bir neçə gün əvvəl həkimlər görüblər ki, pasiyent hərdənbir barmaqlarını tərpədir. Bundan başqa, o, hərdən gözlərini açdığı halda, hərdən də heç bir aktivlik nümayiş etdirmirmiş. Xəstənin diqqətini cəlb etmək üçün tibb bacılarından biri cibindən pul çıxarıb və onu xəstənin gözü qabağında oynatmağa başlayıb. Bunu görən kimi xəstə əlini pula tərəf uzadıb. Müalicə həkimi jurnalistlərə açıqlamasında bildirib ki, Sya Lionun reaksiyası gözlənilən olub, kupyura isə sadəcə bəhanə imiş: "Sya Lio hazırda sağalmağa doğru getsə də, sonuna qədər hərəkət etmək imkanı qazanmayıb. Hazırda ailəsi onun diqqətini cəlb etmək üçün daha çox puldan istifadə edir". Bunu da çinlinin həkimi deyib.

2013-cü ilin avqustunda, həmin vaxt 30 yaşı olan Syai Li kompüter salonunda huşunu itirib. Sonradan aydınlaşıb ki, kişi fasiləsiz olaraq bir həftə onlayn poker oynayıb. Nəticədə isə kişidə beyin qanaması yaşanıb.

# Nyu-York ən çirkli şəhər oldu

**Nyu-York ABŞ-ın ən çirkli şəhəri elan edilib. Bu barədə "Səyahət və istirahət" jurnalının apardığı sorğunun nəticələrindən məlum olub. ABŞ-ın ən iri meqapolisinin göstəriciləri ötən illə müqayisədə pisləşib.**



Respondentlərin fikrincə, Nyu-York həm də Amerikanın ən səs-küylü şəhəri, sakinləri isə ən kobud amerikalılardır. Digər tərəfdən, "Böyük alma" (Nyu-Yorku bəzən belə də adlandırırlar) dəblə geyinmiş adamların, bahalı dükanların, teatrların sayına görə birinci yerdədir.

"Antireytinq beşliyi"nə Yeni Orlean (Luiziana ştatı), Baltimor (Merilend ştatı), Los-Anceles (Kaliforniya ştatı), Atlanta (Corciya ştatı) da daxildir. ABŞ-ın 35 şəhərinin qiymətləndirildiyi sorğuda 35 min adam iştirak edib.

# 80 yaşında 326 milyon dollar qazandı

**Nyu-Yorkda keçmiş məktəb direktoru, təqaüdçü Harold Daymond lotereyadan 326 milyon dollar qazanıb. Lenta.ru saytının xəbərinə görə, təqaüdçü lotereya biletini yanacaqdoldurma məntəqəsindən əldə edib. 80 yaşlı Daymond öz həyat yoldaşı ilə birlikdə pis havalardan birində yanacaqdoldurma məntəqəsindəki kafedə yemək yeməyə girib. Sendviç alandan sonra təqaüdçü lotereya almaq üçün 10 dollar sərf edib. Lotoreyada qalib gəldiyini isə Daymond dostları ilə qolf oynayanda öyrənib. Klubun işçilərindən biri bildirib ki, qalib bilet benzindoldurma məntəqəsində satılıb. Bundan sonra təqaüdçü aldığı bileti yoxlayıb və qalib olduğunu öyrənib.**

Daymond udduğu pulu dərhal almağı qərarlaşdırıb. Lotereyanın qaydalarına görə, bu halda cek potun məbləği aşağı düşür. Nəticədə Daymondun udduğu pul 197 milyon dollara enib. Bütün vergi və əlavə ödəmələrdən sonra isə təqaüdçüyə 130 milyon dollar çatıb. Xəbərdə qeyd edilir ki, hələ Daymondla yoldaşı qazandıqları pulla nə edəcəklərini bilmirlər. Amma yaşları irəlilədiyi üçün pulu tez əldə edib, həyatlarının qalan hissəsini maksimum az qayğısız keçirmək istədiklərini bildiriblər.

Mega Millions lotereyası ABŞ-da 1996-cı ildən etibarən keçirilir. 2012-ci ildə bu lotereya üzrə ən böyük uduş olub ki, onun da məbləği 656 milyon dollardır.






# Hər iki saatdan bir pişik tükü yeyir

**ABŞ-da yaşayan Lisa adlı qadın qəribə adəti ilə hər kəsi heyrətləndirir. Haberturk.com saytının xəbərinə görə, 43 yaşlı qadın bir neçə gün əvvəl "Qəribə adətlər" adlı teleproqramın qonağı olub. O, müsahibəsində bildirib ki, pişik tükü yeməyə təsadüfən başlayıb. İndi isə bu adətindən vaz keçə bilmir.**

Qadın yaşadığı binanın ətrafındakı pişikləri təqib edir və onların yerə tökülən tüklərini yeyir. Bu günə qədər 3200 top pişik tükü yeyən qadının sözləri hər kəsi təəccübləndirib. Lisanın sözlərinə görə, yeməyə tük tapmayanda pişikləri qucağına alaraq onları yalayır. Maraqlıdır ki, qadın tükləri əvvəlcə ağzında çeynəyir.

Lisa pişik tükü yediyinə görə onu qınayanlara bunları deyir: "Pişiklərin tükündə xüsusi bir dad var. Mən o dadı sevirəm. Bədənimi rahatlaşdırır, əsəblərimi sakitləşdirir. Hər iki saatdan bir pişik tükü yemək istəyirəm".




**QOÇ** - Risk etməkdən qorxmayın. Amma bilin ki, bu riski hansı məqsəd uğrunda edirsiniz. Başınızı qoruyun. Ulduzların düzümü şəxsi büdcənizdə müəyyən artımların olacağını bəyan edir.

**BUĞA** - Bu təqvimi bürcünüz üçün həftənin ən düşərli günü kimi dəyərləndirmək olar. Ələlxüsus da əməkdaşlıq zəminində uğurlu məqamlarla rastlaşacaqsınız. Sizə aid olmayan işlərə müdaxilə etməyin.

**ƏKİZLƏR** - Sevgi münasibətlərində bir qədər anlaşılmazlıqlar mümkündür. Çalışın ki, bu amil mübahisə həddinə çatmasın. Səhvlərinizi etiraf etməyi bacarın. Bunun sizə yalnız xeyri dəyə bilər.

**XƏRÇƏNG** - Məqsədlərinizi reallaşdırmaqda tənbəllik edirsiniz. Bu isə Göy qübbəsinin xoşuna gəlmir. Özünüzdə təpər tapın. Hər adama bel bağlamayın. Çünki bu dövrdə heç nə boş-boşuna əmələ gəlmir.

**ŞİR** - Bir qədər gərgin gündür. Özünüzü istənilən təzyiq və təhlükələrdən qorumalısınız. Haqqınızın tapdanmasına yol verməyin. Yeri gəlsə, bu istiqamətdə sərt mövqe də nümayiş etdirin.

**QIZ** - Astroloji göstəricilər nə qədər yeni simalarla rastlaşsanız, bir o qədər nailiyyət qazanacağınızı bəyan edir. Əgər işlə bağlı məşğul deyilsinizsə, axşam mütləq qonaq gedin.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu əsrarəngiz təqvimdə daha çox səhhətinizə fikir verməlisiniz. Nahardan sonra isə işgüzar sövdələşmələrə başlamaq, yeni əlaqələr yaratmaq xeyirlidir.

**ƏQRƏB** - Maddi firavanlığa qovuşmaq üçün geniş imkanlarınız var. Boş oturmağa çalışmayın. Pul qoxusu gələn istənilən ünvana və şəxsə müraciət edin. Qeybətcil adamlardan uzaq olun.

**OXATAN** - Təzadlı bir gün yaşayacağınız gözlənilir. Ulduzlar sizə qarşı bir neçə istiqamətdən təzyiqlər olacağını, həmçinin perspektivli təkliflər alacağınızı bildirir.

**OĞLAQ** - Müntəzəm surətdə rastlaşdığınız şəxslərlə davranışlarınıza fikir verin. Özünüzü mehriban aparın. Qabiliyyətsiz adamlarla ünsiyyəti səngidin. Varlanmaq üçün imkan qazanacaqsınız.

**SUTÖKƏN** - Ailə zəminində müəyyən xoşagəlməzliklər gözlənilsə də, bu, yalnız günün birinci yarısını əhatə edəcək. Nahardan sonra isə xoş təsadüflərlə rastlaşacaqsınız. Axşam qonaq getməyə çalışın.

**BALIQLAR** - Şəxsi həyatınızda önəmli dəyişikliklər etmək istəyirsinizsə, bu gündən maksimum bəhrələnin. Aldığınız təklifləri düşünmədən rədd etməyin. Axşam təzə xəbərlər gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ağzına girən milçəyi öldürmək istədi, özü öldü



**Türkiyədə ən əcaib ölümlərin siyahısı hazırlanıb. Yazette.com saytının xəbərinə görə, bu siyahıda 53 yaşlı balıqçı Cevdet Özkanın ölümü ilk yeri tutub. Balıqçının ölüm səbəbi tragikomikdir. Belə ki, balıqçı əsnəyərkən ağzına, ordan da mədəsinə girən milçəyi öldürmək üçün "unikal" bir üsul seçib. Bu üsul milçəköldürən spreyi ağzına sıxmaqdan ibarət olub. Bu üsulu tətbiq edəndən bir neçə dəqiqə sonra Özkanın halı pisləşib. Yaxınları onu xəstəxanaya çatdırandan az sonra balıqçı həyatını itirib. Həkimlər kişinin zəhərləndiyini və mədəsini yumağın da heç bir xeyri olmadığını deyib.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300